AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

HABİL NURKİŞİ OĞLU MƏMMƏDOV

# AZƏRBAYCAN RESPUBLİKASI İLƏ ŞƏRQİ AVROPA ÖLKƏLƏRİ ARASINDA MƏDƏNİ ƏLAQƏLƏR (1991-2008-CI ILLƏR)

**İxtisas: 5502. 01 – Ümumi tarix**

**Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

## A V T O R E F E R A T I

BAKI – 2013

Dissertasiya işi Bakı Slavyan Universitetinin Avropaşünaslıq kafedrasında yerinə yetirilmişdir

**Rəsmi opponentlər**: tarix üzrə elmlər doktoru, professor **N.C.Mehdiyeva**

tarix üzrə elmlər doktoru, professor **N.Ə.Axundov**

tarix üzrə elmlər doktoru, professor **M.S.Həsənov**

**Aparıcı təşkilat:** AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın beynəlxalq əlaqələri tarixi" şöbəsi

Müdafiə "_08_"06__2013-cü il tarixdə saat____-də Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 22 fevral 2013-cü il tarixli 95 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ – 1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi -23.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq olar.

**Avtoreferat "____"___________2013-cü ildə göndərilmişdir.**

**Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə elmlər doktoru, professor R.C.Süleymanov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Mədəniyyətlərarası dialoq bizim dövr üçün bir zərurətdir. Müxtəlifliyin və təhlükələrin artdığı dünyada biz sosial bağlılığı möhkəmlətmək və münaqişələrin qarşısını almaq üçün etnik, dini, dil və milli sərhədlər ətrafında danışıqlara ehtiyac duyuruq.[1]

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq mədəni əlaqələr yeni xarici siyasətin başlıca alətlərindən birinə çevrildi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qeyd etdiyi kimi, «dünyanın qarşılıqlı əlaqə və qarşılıqlı asılılığından irəli gələrək Azərbaycan Respublikası özünün xarici siyasətində sülhməramlı siyasət aparır və suverenliyə riayət, bir-birinin daxili işlərinə qarışmamaq, ərazi bütövlüyü və sərhədlərin pozulmazlığı prinsipləri əsasında bütün ölkələr ilə xoş münasibətlər saxlamağa çalışır».[2] Bu siyasətin əsas məqsədləri xarici ölkələrlə qarşılıqlı anlaşma və qarşılıqlı inam münasibətlərini möhkəmləndirməkdən, onlarla bərabərhüquqlu və qarşılıqlı faydalı olan tərəfdaşlığı inkişaf etdirməkdən, ölkəmizin dünyada obyektiv şəkildə tanınmasını təmin etməkdən ibarət olmuşdur. Gənc müstəqil dövlətin imicinin formalaşmasında milli mədəniyyət öz təsirliliyi və inandırıcılığı ilə, siyasətdə və iqtisadiyyatda qazanılan nailiyyətlərdən heç də az rol oynamamışdır. Bir çox xarici ölkələrlə əlaqələr nəzərə çarpacaq dərəcədə güclənmişdir. [3] Azərbaycan dövlətinin müstəqillik illərində həyata keçirdiyi mədəniyyət siyasəti həm ölkəmizin daxilində, həm də beynəlxalq aləmdə mədəniyyətlərarası əməkdaşlığın inkişafına dəyərli töhfə vermişdir. Bu mənada Şərqi Avropa ölkələri ilə mədəni əlaqələr xüsusilə diqqəti cəlb edir.

Azərbaycanın mədəni əlaqələrinin tarixinin öyrənilməsi milli tarixşünaslığın mühüm bir sahəsinə çevrilmişdir. Müstəqil respublikamızın Şərqi Avropa ölkələri ilə mədəni əlaqələrinin tarixi

---

[1] Mədəniyyətlərarası Dialoqa dair Ağ Kitab "Ləyaqətlə Bərabərhüquqlu Birgə Yaşama" Avropa Şurasının Xarici İşlər Nazirlərinin 118-ci Sessiyasında qəbul edilmişdir (Strasburq, 7 May 2008-ci il) http://webcache.googleusercontent .com
/search?q=cache:7u wRd5wacoJ:www.coe.int/t/dg4/intercultural/Source/Pub_ White_Paper/White PaperID_ AzerianVersion.pdf+, s.34.

[2] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 30 kitabda, 14-cü kitab (dekabr 1997-fevral 1998). Bakı: Azərnəşr, 2005, s. 9.

[3] Azərbaycanda mədəniyyət siyasəti. Bakı: Nağıl evi, 2004, s.75.

öyrənilmədiyindən tədqiqata cəlb olunan mövzu Azərbaycan tarixşünaslığında bu sahədə boşluğu doldurmaq zərurətindən irəli gəlmişdir.

Tədqiqat predmeti kimi seçilmiş mövzunun araşdırılması Azərbaycan Respublikasının Şərqi Avropa ölkələri ilə 1991-2008-ci illəri əhatə edən mədəni əməkdaşlıq əlaqələri sahəsində toplanmış tarixi təcrübənin öyrənilməsi nöqteyi-nəzərindən aktualdır. Belə ki, respublikamızın Şərqi Avropa ölkələri ilə əməkdaşlığının səmərəliliyi tarixi təcrübənin düzgün tətbiqindən və onun əsasında ikitərəfli əlaqələrin inkişaf perspektivləri və dinamikasını dəqiq müəyyənləşdirmə bacarığından daha çox asılıdır. Eyni zamanda mövzunun elmi təhlili qloballaşan dünyada mədəni əlaqələr ilə bağlı proseslərin inkişaf qanunauyğunluqlarının və problemlərinin müəyyənləşdirilməsinə, ölkənin milli-mədəni və humanitar təhlükəsizliyinin təmin edilməsi sahəsindəki fəaliyyətə konkret töhfə vermək baxımından da aktualdır.

Tarixi təcrübə göstərir ki, mədəniyyət inkişaf etmək üçün daima başqaları ilə qaynayıb-qarışmalı və zənginləşməlidir. Fərqli mədəniyyətlərin nümayəndələri bir-birilərini öyrənib başa düşməli, ilk növbədə orada olan ən yaxşını axtarıb tapmalıdır. A.S.Buşminə görə, «hər bir millətin dünyanı zənginləşdirən ümumbəşəri dəyərləri vardır».[1] Ta qədimdən dünya xalqları bir-biri ilə milli-mədəni dəyərlərini qarşılıqlı mübadilə etmişlər. Böyük hind yazıçısı R.Taqorun sözləri ilə desək: «Əsl bütövlük rəngarəngliyin harmonik çulgalaşmasındadır. Hər hansı yeknəsək incəsənət mənasız və qeyri-həyatidir. Əgər Fransa, İtaliya, Almaniya və Böyük Britaniya öz milli-mənəvi sərvətlərini ümumi xəzinəyə verməyərək bir-birindən tamamilə təcrid olunmuş halda fəaliyyət göstərsəydilər, onda Avropa sivilizasiyasının nə qədər ziyan çəkə biləcəyini təsəvvür etmək o qədər də çətin deyildir. Bu ideyanı inkişaf etdirərək qətiyyətlə demək olar ki, əgər Qərb Şərqdən, Şərq isə Qərbdən təcrid halda mədəniyyətini yaradaraq inkişaf etdirsəydi, onda dünya mədəniyyət xəzinəsi nə qədər bəsit və kasıb, cansıxıcı olardı».[2] Beləliklə, Azərbaycan və Şərqi Avropanın zəngin mədəni irsə və dəyərlərə malik xalqlarının mədəniyyətlərinin qarşılıqlı əlaqələri «milli

---

[1] Бушмин А.С. Преемственность в развитии литературы. Л.: Художествен. литер., 1975, s.54

[2] Тагор Рабиндранат. Собирание сочинений. В 12-ти т. 11 т. / Пер. с бенгал. И англ. Под ред. Е. Быковой. М.: «Худож. лит.», 1965, s. 234-235.

mədəniyyətin bəşər mədəniyyətinin tərkib hissəsi kimi inkişaf etdirilməsi»[1] baxımından aktual tədqiqat mövzusu kimi diqqəti cəlb edir.

Azərbaycanın Şərqi Avropa ölkələri ilə mədəni əlaqələrinin zəngin və çoxəsrlik tarixi onun möhkəm təməllərə dayandığını göstərir. Məlum olduğu kimi, Türkmənçay sülh müqaviləsi ilə Rusiya tərəfindən işğal olunan Şimali Azərbaycan Avropanın siyasi-iqtisadi və mədəni həyatına cəlb olundu. Vahid imperiyanın tərkibində olan Azərbaycan və rus, Ukrayna, Belarus, Litva, latış, eston, polyak xalqları arasında ticarət-iqtisadi və mədəni əlaqələr qurulmuş və genişlənmiş, XX əsrdə daha intensiv olmuşdur. [2] Sovet dövründə vahid sosializm düşərgəsi daxilində Azərbaycan və Şərqi Avropa respublikaları arasında mədəniyyət sahəsində əməkdaşlıq daha da genişləndi.[3]Bu isə müstəqillik illərində Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinin inkişafına əlverişli zəmin yaratdı. SSRİ-nin süqutu və geosiyasi dəyişikliklər ilə mədəni əlaqələr sahəsində yeni müstəqil tarixi mərhələnin əsası qoyuldu. Yeni tarixi mərhələdə Avropaya öz milli-mənəvi dəyərlərini qoruyub saxlamaqla inteqrasiya olunmaq və bu istiqamətdə Şərqi Avropa ölkələri ilə münasibətləri daha da möhkəmləndirmək müstəqil Azərbaycan Respublikasının xarici siyasətinin əsas strateji məqsədlərindən biri oldu. Prezident Heydər Əliyev ölkələrimiz arasında qarşılıqlı əlaqələrin və yaxın münasibətlərin yaradılması istiqamətində fəal xarici siyasət kursunu həyata keçirdi. Onun ardıcıl olaraq həyata keçirdiyi əməkdaşlıq və dostluq siyasəti və eyni zamanda, Şərqi Avropa ölkələrinin öz strateji maraqlarını təmin etmək istəyi bu respublikaların da Azərbaycanla münasibətlərini inkişaf etdirmək xətti götürməsinə səbəb oldu. Nəticədə 1995-ci ildən etibarən Şərqi Avropa ölkələri ilə siyasi, iqtisadi və mədəni əlaqələrdə güclü dönüş yarandı. XX əsrin 90-cı illərinin ikinci yarısında

---

[1]Mədəniyyət və turizm fəaliyyətinə aid Qanunlar toplusu. Bakı: Səda, 2007, s.14.

[2]Məmmədov H.N. Azərbaycan-Şərqi Avropa: mədəniyyətlərarası əməkdaşlığın tarixi. Bakı: Mütərcim, 2008, s.20-21.

[3]Ətraflı məlumat üçün bax: Гусейнова Э.А. Участие Азербайджанской ССР в научно-культурных связях СССР с социалистическими странами Европы (1959 – 1965). Дисс…канд.ист.наук. Баку, 1975; Mehdiyeva N.C. Azərbaycan yaradıcılıq ittifaqlarının mədəni əlaqələri (1960-1980-ci illər). Bakı:Azərnəşr, 1991,130 s.; Гасымлы М.Дж. Азербайджан в международных культурных связях (1946-1990 гг.). Тбилиси: Артануджи, 2005, 300 с. və s.

Azərbaycan və Şərqi Avropa ölkələri arasında çox sayda protokol, müqavilə və sazişlərin imzalanması nəticəsində mədəni əlaqələrin siyasi-hüquqi əsasları yaradıldı və möhkəmləndirildi. XXI əsrin əvvəlindən etibarən mədəni əməkdaşlığın bütün formaları üzrə əlaqələrin dinamik inkişafı baş verdi. Bunların içərisində kitab nəşri və mübadiləsi, kitab sərgi və yarmarkaları, musiqi, teatr, kino, televiziya, radio, tətbiqi və təsviri incəsənət, təhsil və elm, idman və mədəni turizm sahələrində əməkdaşlıq formaları, mədəniyyət günlərinin keçirilməsi, qardaşlaşmış şəhərlərin əlaqələri, milli diaspor təşkilatların fəaliyyəti və s. mühüm yer tuturdu. Elm, mədəniyyət və incəsənət xadimlərinin KİV, elektron (internet) resursları vasitəsilə sıx yaradıcılıq əlaqələri, kitab mübadiləsi və s. geniş vüsət aldı. Texniki imkanların genişlənməsi ilə bağlı mədəniyyət və incəsənət növlərinin yayılma və mübadilə formalarında, mədəni əlaqələrin inkişafı istiqamətində labüd dəyişikliklər baş verdi. Heydər Əliyevin xarici siyasətində mühüm yer tutan Azərbaycan və Şərqi Avropa xalqları arasında mədəniyyət, elm və təhsil sahəsində sıx əməkdaşlıq Prezident İlham Əliyev tərəfindən davam və inkişaf etdirildi. Aparılan tədqiqat bu mədəni əməkdaşlıq proseslərini dərindən və hərtərəfli izləmək, respublika rəhbərliyinin bu istiqamətdəki fəaliyyətini təhlil etmək və lazımı elmi nəticələr çıxarmaq baxımından aktual əhəmiyyət daşıyır.

Problemin tədqiqinin aktuallığını göstərən amillərdən biri də mədəni əlaqələrin qloballaşan dünyanın bir çox mühüm əlamətləri ilə üzləşməsidir. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, «Mədəni inteqrasiya və qloballaşma dünya inkişafının müasir mərhələsinin əsas meylləri kimi çıxış edir». [1] Amerikanın məşhur politoloqu S.Hantinqton da müasir dövrdə dünya siyasətinin bütün sahələrini sivilizasiyaların münasibətinin müəyyənləşdirdiyini vurğulayır: « … dünyada «soyuq müharibə»dən sonra mədəniyyət və mədəni identifikasiya (ən geniş səviyyədə məhz sivilizasiyaların identifikasiyası) həmrəylik, dezinteqrasiya və konflikt modellərini müəyyənləşdirir». [2] Bu mənada Çexiyanın sabiq prezidenti V.Havelin

---

[1] Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. // «Azərbaycan» qəz., Bakı,2000, 30 dekabr, № 300 (2712).

[2] Хантингтон С. Столкновение цивилизаций. М.: ООО «Издательство АСТ», 2003. s. 15.

mülahizələri çox maraqlıdır: « …Əslində bütün müasir dünya minlərlə siyasi, iqtisadi, informasiya şəbəkələri və əlaqələri ilə əhatə olunmuşdur. Biz hamımız bir-birimizi tanıyırıq, minlərlə ümumi vərdişlərlə, texnologiyalarla, davranış modelləri, sivilizasiya forma və məqsədləri ilə bir-birimizə bağlıyıq. Ona görə də məncə, bugünkü dünyanı qlobal sivilizasiya kimi başa düşmək daha doğru olardı.[1] Beləliklə, XXI əsrin inkişaf strategiyasını müəyyənləşdirən qloballaşma dövlətlərin irimiqyaslı qarşılıqlı əlaqəsinin, onların qarşılıqlı asılılığının dərinləşməsinə aparır. Heç bir dövlət, o cümlədən də Azərbaycan təcrid edilmiş halda, digər dövlətlərlə qarşılıqlı əlaqə olmadan öz vəzifələrini həyata keçirə bilməz. Dünya inkişafının məcrasına gedən Azərbaycan özünün dövlət prioritetlərini milli mənafeləri baxımından müəyyənləşdirir. Məhz buna görə də qloballaşma dövründə milli inkişafın strateji vəzifələrindən biri ölkənin Avropa ailəsinə sıx inteqrasiyası, Azərbaycanın Avropa dövlətləri ilə qarşılıqlı əlaqəsinin sürətləndirilməsidir.[2] Ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi kimi, məqsəd bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək, həm də respublikanın elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir.[3] Bu nöqteyi – nəzərdən mövzunun araşdırılması elmi-nəzəri, praktik və siyasi aktuallıq kəsb edir və qloballaşan dünyada dövlətimizin tutduğu strateji xəttin mahiyyətini dərindən dərk etməyə, Azərbaycan - Şərqi Avropa mədəni əlaqələrini Baltik, Qara və Xəzər dənizləri hüdudundakı xalqlar arasında vahid mədəniyyət məkanının yaradılması prosesinin tərkib hissəsi kimi öyrənməyə və dəyərləndirməyə imkan verir.

Azərbaycan tarixən Şərq və Qərb mədəniyyətlərinin qovuşma nöqtəsi, Şərqi Avropa xalqlarının nümayəndələrinin də daxil olduğu bir çox azsaylı xalq, milli azlıq, etnik qrup və dini icmaların yaşayış məskəni, vətəni olmuşdur. Azərbaycan Qərb və Şərq sivilizasiyalarının ən yaxşı nailiyyətlərini özündə təcəssüm etdirmiş bənzərsiz mədəni

---

[1] Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı: XXI – Yeni Nəşrlər Evi, 2005, s. 150.

[2] Yenə orada, s. 173.

[3] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 30 kitabda, I kitab (İyun 1993-may 1994). Bakı: Azərnəşr, 1997, s.205.

ənənələrin formalaşmasına görə postsovet məkanında nadir bir yer tutur.[1] Azərbaycan və Şərqi Avropa ölkələrində fəaliyyət göstərən milli diaspor, dostluq cəmiyyətləri və mədəniyyət mərkəzləri də ikitərəfli mədəni əlaqələrin, mədəniyyətlərarası əməkdaşlığın inkişafında yaxından iştirak etmişlər. Bu sahədə aparılan elmi araşdırmalar milli-mədəni birliklərin mədəni əlaqələrin inkişafındakı rolunu ətraflı göstərmək, ölkəmizin tolerantlığa, mədəniyyətlərarası əməkdaşlığa, xalqlar arasında sülh və dostluğa mühüm və önəmli yer verdiyini sübut və təbliğ etmək baxımından da aktual əhəmiyyət daşıyır.

Yuxarıda qeyd edilən səbəb, arqument və amillər Azərbaycan Respublikasının Şərqi Avropa ölkələri ilə 1991-2008-ci illəri əhatə edən mədəni əlaqələrinin hərtərəfli və dərindən elmi araşdırılmasını aktual etmişdir.

**Tədqiqatın xronoloji çərçivəsi** 1991-2008-ci illəri əhatə edir. Xronoloji çərçivənin müəyyən edilməsində bir sıra tarixi hadisə və proseslər kompleksi nəzərə alınmışdır. Tədqiqatın başlanğıcının 1991-cı ildən götürülməsi həmin ildə Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini bəyan etməsi və eyni zamanda, XX əsrin 90-cı illərinin əvvəllərində Şərqi Avropa ölkələrinin də yeni siyasi, iqtisadi və sosial-mədəni həyata keçməsi faktına əsaslanır. Bildiyimiz kimi, 2008-ci ildə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin birinci prezidentlik dövrü başa çatmışdır. Bu tarix dissertasiyanın xronoloji çərçivəsinin son hüdudu olaraq götürülmüşdür. Mövcud xronoloji çərçivə Azərbaycan Respublikası ilə Şərqi Avropa ölkələri arasında mədəni əlaqələri araşdırmağa imkan verir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Hər şeydən əvvəl, qeyd etməliyik ki, müxtəlif dövrlər üzrə Azərbaycanın mədəni əlaqələri tarixinin öyrənilməsi sahəsində respublikamızın tarixçiləri mühüm uğurlar qazanmışlar. O cümlədən, E.A. Hüseynova,[2] N.C.Mehdiyeva[3],

---

[1] Əliyev H.Ə. Müstəqilliyimz əbədidir: 30 kitabda, 18-ci kitab (oktyabr 1998-dekabr 1998). Bakı: Azərnəşr, 2006, s.418.

[2] Гусейнова Э.А. Участие Азербайджанской ССР в научно-культурных связях СССР с сосиалистическими странами Европы (1959 – 1965). Дисс. канд. ист. наук. Баку, 1975.

[3] Mehdiyeva N.C.Azərbaycan yaradıcılıq ittifaqlarının mədəni əlaqələri (1960-1980-ci illər). Bakı: Azərnəşr, 1991, 130 s.

M.C.Qasımlı[1] və digər tarixçi – alimlər öz elmi əsərlərində Azərbaycan SSR ilə Şərqi Avropanın sosialist respublikaları arasındakı mədəni əlaqələrin tədqiqinə xüsusi yer ayırmışlar.

Müasir mərhələdə Azərbaycan-Şərqi Avropa mədəni əlaqələri tarixşünaslıqda tədqiqatın problematikliyi baxımından ayrıca olaraq öyrənilməmişdir. Lakin müstəqil Azərbaycan Respublikasının Ukrayna, Rusiya, Polşa və digər Şərqi Avropa dövlətləri ilə ikitərəfli qarşılıqlı əlaqələrinin müxtəlif tərəfləri və məsələlərinə həsr olunmuş tədqiqat işlərində olan faktik material özlüyündə maraqlıdır. Biz burada T.M.Əliyevin[2], H.Ə.Bəxtiyarovun[3], N.S.Məmmədzadənin[4] və A. N. Cəfərlinin[5] tədqiqat işlərinin əhəmiyyətini xüsusi qeyd etmək istərdik. Belə ki, T.M.Əliyevin «müasir mərhələdə Azərbaycan və Ukrayna arasında ikitərəfli münasibətlərin formalaşması və inkişafının kompleks analizi»[6] nə həsr etdiyi dissertasiyasının III fəslində humanitar sahədə əməkdaşlıq məsələləri ətraflı işıqlandırılmışdır».[7] Burada təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığa dair maraqlı məlumat verilmiş, milli diasporun dövlətlərarası münasibətlərin möhkəmlənməsində rolu müfəssəl şərh olunmuşdur. H.Ə.Bəxtiyarov tədqiqat işinin II fəslinin 2-ci paraqrafında Azərbaycan-Ukrayna mədəni əlaqələrindən bəhs etmişdir.[8]

N.S.Məmmədzadənin müasir mərhələdə Azərbaycan və slavyan dövlətləri arasında qarşılıqlı münasibətlərin siyasi aspektdən araşdırdığı tədqiqat işində respublikamızın humanitar və mədəni sahədə Rusiya[9],

---

[1] Гасымлы М.Дж. Азербайджан в международных культурных связях (1946-1990 гг.). Тбилиси: Артануджи, 2005, 300 с.

[2] Алиев Т.М. Азербайджанско-украинское сотрудничество: современный этап развития: Дисс… канд. полит. наук. Баку, 2004, 144 с.

[3] Bəxtiyarov H.Ə.Azərbaycan-Ukrayna iqtisadi və mədəni əlaqələri (XX əsrin 90-cı illəri): Tar.elm.nam….dis. Bakı, 2006, 171 s.

[4] Мамедзаде Н.С. Взаимоотношения Азербайджанской Республики со славянскими странами в современный период. Дисс… канд. полит. наук. Баку, 2006, 166 с.

[5] Cəfərli A.N. Azərbaycan-Polşa münasibətləri (1991-2006-cı illər): Siy.elm.üzrə fəl.dok. ... dis. Bakı, 2011, 169 s.

[6] Алиев Т.М. Азербайджанско-украинское сотрудничество: современный этап развития: Дисс… канд. полит. наук. Баку, 2004, s.8.

[7] Yenə orada, s.97- 109.

[8] Bəxtiyarov H.Ə.Azərbaycan-Ukrayna iqtisadi və mədəni əlaqələri (XX əsrin 90-cı illəri): Tar. elm. nam….dis. Bakı, 2006, s.98- 109.

[9] Məmmədzadə N.S. Göst.əsəri, s.81-95.

Ukrayna,[1] Belarus,[2] Polşa[3] və Bolqarıstan[4] ilə əlaqələrinə dair faktik materiallar verilmişdir. Burada Azərbaycan Respublikasının Belarus, Polşa və Bolqarıstanla mədəni əlaqələrinə ötəri toxunulmuşdur.

A.N.Cəfərli dissertasiya işinin III fəslinin 2-ci yarımfəslində elm və mədəni-humanitar sahələrdə 1991-2006 – cı illəri əhatə edən Azərbaycan - Polşa mədəni əlaqələrindən qismən bəhs etmişdir.[5]

Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinin inkişafında mühüm rol oynamış ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin fəaliyyətlərinin əks olunduğu kitablar [6] tədqiqat prosesində istiqamətverici və baza rolunu oynayaraq problem üzrə dəyərli məlumat və faktlara malikdirlər. Bunların tədqiqat işinin yazılmasında, o

---

[1]Yenə orada, s.113-119.

[2]Yenə orada, s.124.

[3]Yenə orada, s. 129.

[4]Yenə orada, s.134.

[5]Cəfərli A.N. Göst. əsəri, s.135-146.

[6] Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Respublikasının prezidenti H.Əliyevin 1995-1996-cü illərdə xarici ölkələrə səfərlərinə dair materiallar), 6 cilddə, II c., Bakı: Göytürk, 1997, 762 s.; Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Respublikasının prezidenti H.Əliyevin 1998-cü ildə xarici ölkələrə səfərlərinə dair materiallar), 6 cilddə, IV c., Bakı: Göytürk, 1999, 520 s.; .Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Respublikasının prezidenti H.Əliyevin 1999-cü ildə xarici ölkələrə səfərlərinə dair materiallar), 6 cilddə, V c., Bakı: Göytürk, 1999, 476 s.; Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 30 kitabda, I kitab (İyun 1993 – may 1994). Bakı: Azərnəşr, 1997, 597 s.; Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 30 kitabda, 6-cı kitab (Mart 1996 – iyun 1996). Bakı: Azərnəşr, 1998, 512 s.; Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 30 kitabda, 7 - ci kitab (iyun 1996 - noyabr 1996). Bakı: Azərnəşr, 1998, 520 s.; Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 30 kitabda, 9-cu kitab (mart 1997 – may 1997 ). Bakı: Azərnəşr, 2006, 466 s.; Əliyev H.Ə. Müstəqilliyimz əbədidir: 30 kitabda, 14-cü kitab (dekabr 1997 - fevral 1998). Bakı: Azərnəşr, 2005, 520 s.; Əliyev H.Ə. Müstəqilliyimz əbədidir: 30 kitabda, 15-ci kitab (mart 1998 - iyun 1998). Bakı: Azərnəşr, 2005, 528 s. Abdullayev K. Heydər Əliyev BSU-nun yaradıcısıdır // Bakı Slavyan Universitetinin Elmi Əsərləri (İctimai-siyasi elmlər seriyası). Ümummilli liderimiz H.Ə.Əliyevin 85 illiyinə həsr edilmiş Xüsusi buraxılış. Bakı, 2008, s. 63-68.; Алиев И.Г. Каспийская нефть Азербайджана. М.:Известия, 2003, 713 с. 297; Аббасбейли А., Аббасбейли Э. Гейдар Алиев и мировая политика. Баку: Азернешр, 1997, 328 с.; Алиев Г. Основоположник, спаситель и созидатель современного Азербайджана. Бишкек: Мегамедиа, 2008, 256 с. və s.

cümlədən Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrini şərtləndirən amillərin, siyasi-hüquqi bazanın və başqa məsələlərin aydınlaşdırılmasında müəllifə böyük köməyi olmuşdur. Y.M.Mahmudlunun və İ.M.Hüseynovanın əsərlərində ümummilli lider Heydər Əlyievin və Prezident İlham Əliyevin Azərbaycanın siyasi, iqtisadi və mədəni əlaqələrinin təşəkkülündə və inkişafında rolları xüsusi olaraq təhlil olunur və dolğun məntiqi nəticələr çıxarılır.[1]

Müstəqil Azərbaycan Respublikasının xarici siyasətinin problemləri, əsas istiqamətləri və prioritet sahələrindən bəhs edən bir çox tədqiqat əsərlərində dövlətin mədəniyyət sahəsindəki fəaliyyətinə də toxunulmuşdur. Tədqiqat predmeti ilə bu və ya digər baxımdan əlaqəsi olan bu elmi araşdırmaların təhlilini vacib hesab edirik.

M.C.Qasımovun Azərbaycan dövlətinin 1991-1995-ci illərdə beynəlxalq münasibətlər sistemində fəaliyyətinə həsr edilmiş əsərində [2] müstəqil respublikamızın xarici siyasətinin prinsipləri və istiqamətləri, beynəlxalq və regional təşkilatlarda iştirakı məsələləri, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması sahəsində fəaliyyəti və bir çox ölkələr, o cümlədən, Şərqi Avropa ilə əlaqələri tədqiq edilmişdir.

M.C.Qasımovun digər kitabında [3] Azərbaycan dövlətinin xarici siyasət prinsipləri, mahiyyəti, məqsəd və vəzifələri, MDB iştirakçısı olan dövlətlərlə, Avropa, Amerika, Asiya və Afrika ölkələri ilə münasibətləri, beynəlxalq təşkilatlarla əlaqələri konseptual-nəzəri baxımdan təhlil edilir, əməkdaşlığın mümkün yolları və perspektivləri araşdırılmışdır. Müəllif əsərdə Avropa ölkələri ilə mədəniyyət sahəsində geniş əməkdaşlığın saxlanmasına xüsusi diqqət yetirir və eyni zamanda, belə bir fikri ön plana çəkir ki, mədəni əlaqələrin genişləndirilməsi

---

[1] Mahmudov Y.M. Ötən minilliklərin tarixinə Heydər Əliyev baxışı və ya tariximizin dirçəliş konsepsiyası. // XX əsrin sonu və üçüncü minillik münasibəti ilə Heydər Əliyevin Azərbaycan xalqına müraciətinə həsr olunmuş elmi-praktik konfransın materialları.Yanvar 2001-ci il. Bakı, 2001, s. 19-60; Yenə onun. Azərbaycan tarixində Heydər Əliyevin şəxsiyyəti. Bakı: Azərnəşr, 2002, 326 s.; Гусейнова И.М. Гейдар Алиев – от политического руководителя к общенациональному лидеру. Баку: «Тахсил», 2004, 504 с.

[2] Qasımov M.Дж.Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı: Gənclik, 1996, 140 s.

[3] Qasımov M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı: Mütərcim, 1997, 124 s.

mədəniyyətimizin milli köklərini sarsıtmamalı, əksinə möhkəmləndirməlidir.

Ə.Həsənovun monoqrafiyasında[1] müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin vəzifələri, prinsip və xüsusiyyətləri, başlıca istiqamətlərinin elmi-nəzəri konseptual məsələləri, eyni zamanda, respublikamızın 1991-1996-cı illərdə həyata keçirdiyi xarici siyasət kursunun əsas istiqamətlərindən biri olan Avropa dövlətləri və ABŞ-la qarşılıqlı əlaqələrin qurulması və inkişafına yönəlmiş Qərb siyasəti, xarici siyasət konsepsiyasının formalaşması və həyata keçirilməsində ümummilli lider Heydər Əliyevin diplomatik fəaliyyəti tədqiq edilmişdir. Əsərdə Şərqi Avropa ölkələri Bolqarıstan və Rumıniya ilə 1991-1996-ci illəri əhatə edən qarşılıqlı münasibətlər də geniş elmi-siyasi tədqiqata cəlb edilmişdir.

Qeyd etmək lazımdır ki, M.Qasımov və Ə.Həsənovun əsərləri Azərbaycan- Şərqi Avropa mədəni əlaqələrinin siyasi-hüquqi əsasları və əməkdaşlığın inkişafında siyasi iradənin rolu ilə bağlı məsələlərin araşdırılmasında kifayət qədər yardımçı olmuşdur.

S.Sayadovun monoqrafiyasında[2] 1945-1990-cı illərdə Azərbaycan Respublikasının dünyada gedən qlobal proseslərin inkişafında, genişlənməsində və mövcud diplomatik münasibətlərdə iştirakı istiqamətində əldə edilən tarixi təcrübə elmi cəhətdən ümumiləşdirilmiş və təhlil edilmişdir. Əsərdə müstəqil Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin qurulması, onun prioritetləri və qarşısında duran problemlərdən də bəhs edilmişdir.

K.N.Hüseynovanın tədqiqat işi[3] Azərbaycanın Avropa dövlətləri birliyinə inteqrasiyasının nəzəri və praktiki aspektlərinin öyrənilməsinə həsr edilmişdir. Burada inteqrasiya prosesinin hüquqi-siyasi aspektləri nəzərdən keçirilir, Azərbaycanın bu proseslərdə qoşulmasının labüdlüyü sübut edilir, respublikamızın Avropa ölkələri ilə, beynəlxalq təşkilatlarla - NATO, Avropa Şurası və Avropa İttifaqı ilə münasibətləri təsvir edilir.

---

[4]Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı:Elm, 2000, 368 s.

[5]Sayadov S. XX əsr: Azərbaycan və dünya beynəlxalq inteqrasiya sistemində: SSRİ, Avropa, Asiya, Afrika, Amerika (1945-1990-cı illər). Bakı: Elm, 2006, 284 s.

[3] Hüseynova N.K. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində: Siy.elm.dok…dis.avtoref. Bakı, 2001, 55 s.

A.Rəcəblinin monoqrafiyası[1] dövlətin xarici siyasət davranışının tarixi-siyasi təhlilinə, milli mənafe və beynəlxalq təhlükəsizliyin münasibəti məsələlərinin analizinə həsr edilmişdir.

A.Səmədovun monoqrafiyasında [2] Azərbaycanın «neft diplomatiyası» kontekstində Qafqaz-Xəzər regionunda mürəkkəb geosiyasi əməkdaşlıq məsələləri kompleks şəkildə nəzərdən keçirilmişdir.

S.R.Bağırovanın Azərbaycan Respublikası ali təhsil sisteminin beynəlxalq əlaqələrinə həsr olunmuş tədqiqat işində[3] ölkəmizin ali məktəblərinin Şərqi Avropa dövlətlərinin aparıcı universitetləri ilə əməkdaşlığına da toxunulmuşdur.

Qloballaşma şəraitində Azərbaycan dövlətçiliyinin inkişafı və respublikanın xarici siyasətinin əsas vəzifələri ilə bağlı sosial-fəlsəfi və siyasi məsələlərə həsr edilmiş əsərlər arasında R.Mehdiyev [4] və E.Nəcəfovun[5] monoqrafiyaları daha çox diqqəti cəlb edir. R.Mehdiyevin monoqrafiyasında qloballaşan dünyanın yeni reallıqlarının, qərbləşmənin və modernləşmənin Azərbaycan cəmiyyətinə, Azərbaycanda gedən siyasi, sosial-iqtisadi və mədəni islahatlara, o cümlədən, Respublikamızın beynəlxalq mədəni əlaqələrinə təsiri ilə bağlı məsələlər elmi-konseptual yanaşma əsasında təhlil olunmuşdur. E.Nəcəfovun kitabında isə Azərbaycanın müasir ictimai inkişafında mədəniyyət və sivilizasiyanın münasibətinin əsas prinsipləri elmi təhlil müstəvisinə çıxarılmış və həmin prinsiplər əsasında müasir qərb sivilizasiyası dəyərlərinin mənimsənilməsi vasitəsi ilə Azərbaycanın modernləş-məsinin yolları araşdırılmışdır. Müəlliflər haqqında ayrı-ayrılıqda bəhs

---

[1] Раджабли А.А. Национальные интересы и международная безопасность (анализ внешнеполитического поведения). Монография. Баку: «Kitab aləmi», Баку, 2004, 400 s.; Yenə onun. Международные связи Российской Федерации. Учебное пособие. Баку: «Kitab aləmi», 2005, 384 c.

[2] Самедов А. Азербайджан в современной системе международных отношений (1993-2003 гг.). Баку: Абилов, Зейналов и сыновья, 2004, 120 с.

[3] Bağırova S.R. Azərbaycan Respublikası ali təhsil sistemi beynəlxalq əlaqələrdə (1991-2006-cı illər). Tar. üzrə fəl.dok. ... dis. avtoref. Bakı, 2012, 27 s.

[4] Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı: XXI – Yeni Nəşrlər Evi, 2005, 464 s.

[5] Наджафов Э.А. Соотношение культуры и цивилизации в общественном развитии. Баку: Издательство «Университет Азербайджан», 2000, 207 с.; Yenə onun. Problem of modernization in the transitional period of Azerbaijan. St.Petersburg: Evropeysky Dom (Europen Houze), 2002, 124 p.

etdiyimiz monoqrafiyalarında dövlətimizin regional inteqrasiya proseslərində fəal iştirakını, milli-mədəni dəyərlərin qorunub saxlanmasını və inkişafını, keyfiyyətcə yüksək intellektual səviyyəli kadrların hazırlanmasını Azərbaycanın hərtərəfli inkişafının, uğurlu mədəniyyət siyasətinin əsas amili hesab etmişlər. Mövzu araşdırılarkən bunlar həm də Şərqi Avropa ölkələri ilə bərabərhüquqlu və faydalı mədəni əlaqələrin qurulması və inkişafının başlıca amillərindən biri kimi dəyərləndirilmişdir.

Azərbaycanda ədəbi-bədii tərcümə məsələlərinin ümumi vəziyyətinə dair AYB-nin X qurultayında (1997-ci il) M.Qarayevin[1] və XI qurultayında (2004-cü il) S.Babullaoğlunun[2] məruzələri, Azərbaycan-rus ədəbi əlaqələrinə dair H.Adıgözəlovun tədqiqat işi [3], Ə.Ağamirzəyev[4] və İ.Abbasovun məqalələri[5] J.İsmayılovanın milli ədəbiyyatımızın rumın dilində nəşrinə həsr etdiyi elmi məqaləsi[6] və s. tarix elminin deyil, filologiya elmlərinin tələbləri nöqteyi-nəzərindən çıxış etmələrinə baxmayaraq, bunlarda kitab nəşri və mübadiləsi sahəsindəki Azərbaycan-Şərqi Avropa mədəni əməkdaşlığına dair bir sıra mühüm və maraqlı məsələlər öz əksini tapmışdır.

Azərbaycanın müasir beynəlxalq əlaqələrində özünəməxsus rolu olan milli diasporun fəaliyyətinin öyrənilməsi sahəsində respublikamızın

---

[1] Qarayev M.Azərbaycanda ədəbi-bədii tərcümə məsələlərinin ümumi vəziyyəti (90-cı illər). Azərbaycan yazıçılarının X qurultayı. Bakı: Azərnəşr, 1998, s. 165-179.

[2] Babullaoğlu S. «Kənar göz ilə»… 1997-2004-cü illərdə Azərbaycanda tərcümə işinin vəziyyəti (Azərbaycan Yazıçılar Birliyinin XI qurultayı üçün məruzə) // «Dünya ədəbiyyatı» dərgisi, 2004, may. http:// www.translit.az/.../ az/ Tedqiqat-az.htm.

[3] Адыгезалов Г. Библиография журнала «Литературный Азербайджан» по русско – азербайджанским литературным связям и вопросам развития Азербайджанской литературы (1931-2007 гг.). Баку: Мутарджим, 2008, 273 с.

[4] Ağamirzəyev Ə.Müasir dövrdə Azərbaycanda rus ədəbiyyatının nəşri (V.Bəhmənli, H.İsaxanlı və Anarın tərcümələri haqqında) // «Xəzər» Jurnalı, 2007, №1-2, s.146-150.

[5] Abbasov İ. Dost (tərcüməçi-publisist İ.Peçenev haqqında) // «Azərbaycan» jurnalı, 2002, № 9, s. 154-161.

[6] İsmayılova J.Azərbaycan ədəbiyyatı rumın dilində / Ədəbi əlaqələr toplusu. III c. Bakı: Qartal, 2008, s. 182- 190.

tədqiqatçıları müəyyən nailiyyətlər qazanmışlar. V.Arzumanlının, [1] Z.Əliyevin[2], V.Həbiboğlunun,[3] E.X.Kərimlinin,[4] Ə.T.Mehdiyevin,[5] M. Seyidbəylinin,[6] A.İ.Suleymanın[7] və digər tədqiqatçıların əsərlərində milli diasporun təşəkkül tarixi və məskunlaşma coğrafiyası, həmvətənlərimizin təşkilatlanması prosesinin vəziyyəti və soydaşlarımızın yaşadıqları ölkələrin ictimai-siyasi həyatında iştirak səviyyəsi ilə yanaşı, onların Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrindəki fəaliyyəti də araşdırılmış və tədqiq edilmişdir. Həmin əsərlər milli diasporun mədəni əməkdaşlıq sahəsindəki fəaliyyətini daha obyektiv dəyərləndirməyə kömək etmişdir.

Diasporun fəaliyyəti ilə bağlı faktik material cəhətdən «Azərbaycan Diasporu: böyük yolun başlanğıcı» [8] və Azərbaycan diasporuna dövlət qayğısı[9] kitabları çox maraqlı və əhəmiyyətlidir. Adları qeyd edilən kitablarda Azərbaycan dövləti tərəfindən diaspor quruculuğu sahəsində həyata keçirilmiş tədbirlər, xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması prosesi, ölkəmizlə bağlı həqiqətlərin

---

[1] Arzumanlı V., Hüseynov A. Azərbaycan ünvanlı…(Xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan mədəniyyət mərkəzləri və cəmiyyətləri). Bakı: Qorqud, 1994, 110 s.; Yenə onun. Azərbaycan diasporu: reallıqlar, qayğılarr, problemlər. Bakı: Qartal, 2001, 800 s.

[2] Əliyev Z. Beynəlxalq münasibətlərdə diasporların rolu. Bakı,«Nurlan» nəşriyyatı, 2001, 150 s.; Yenə onun. Diaspor. İzahlı sözlük və məlumat kitabı. Bakı,«Yurd» nəşriyyatı, 2007, 366 s.

[3] Həbiboğlu V. H.Əliyev və Azərbaycan diasporu. Bakı, Qartal, 1999, 358 s. Yenə onun. Azərbaycan diasporu yeni mərhələdə. Bakı: Elm, 2006, 264 s.

[4] Kərimli E.X. Moskvada Azərbaycan diasporu-nəzəriyyə və praktika. Bakı: Şuşa, 2001, 240 s.

[5]Mehdiyev Ə.T.Millətin səsi:Azərbaycanlılar MDB məkanında. I hissə. Bakı: ŞƏMS, 2001, 240 s.

[6] Сеидбейли М. Азербайджанская диаспора в России: Особенности и тенденции формирования и развития (1988 – 2007 гг.). Баку: Элм, 2009, 396 с.

[7] Сулейман А.И. Азербайджанский мир Москвы. Москва: ЗАО «Триф и К», 2008, 684 s.

[8] Azərbaycan diasporu:böyük yolun başlanğıcı. Bakı: Çaşıoğlu, 2006, 208 s.

[9] Azərbaycan diasporuna dövlət qayğısı. Bakı: Çaşıoğlu, 2003, 304 s.; Azərbaycan diasporuna dövlət qayğısı. Müasir mərhələ. Bakı: 2006, Çaşıoğlu, 172 s.; Azərbaycan diasporuna dövlət qayğısı (III kitab). Bakı: 2009, Adiloğlu, 284 s.

dünya ictimaiyyətinə çatdırılması istiqamətində onların gördüyü işlər, digər xalqların diaspor təşkilatları ilə əlaqələri və başqa məsələlər öz geniş əksini tapmışdır. Bu kitablardakı məlumatlar dissertasiyada Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrində milli-mədəni birliklərin, dostluq cəmiyyətlərinin, eləcə də nüfuzlu elm və mədəniyyət xadimlərinin rolunun obyektiv və dolğun araşdırılmasında mühüm əhəmiyyət kəsb etmiş və kifayət qədər faydalı olmuşdur.

M.V.Lomonosov adına MDU-nun jurnalistika fakültəsinin aspiranturasının məzunu A.M.Həsənovun «Etnik jurnalistika strukturlarında diasporların kütləvi informasiya vasitələri (Rusiyada Azərbaycan diasporunun KİV-i nümunəsində)» mövzusunda elmi tədqiqatının nəticəsi olaraq ərsəyə gəlmiş dissertasiyada[1] Rusiyada etnik jurnalistika və onun funksiyaları, medianın təşkilində milli diasporun rolu, Azərbaycan diasporuna məxsus KİV-nin tipologiyası,tendensiyaları və inkişaf perspektivləri araşdırılmışdır.Tədqiqat işində Rusiyanın «İzvestiya», «Moskovskiy komsomolets», «Komsomolskaya pravda» və «Nezavisimaya» qəzetlərinin 2006-cı ilin yanvarın 1-dən 2007-ci ilin 1 avqustunadək olan buraxılışlarındakı bu ölkədə yaşayan azərbaycanlılarla bağlı mövzular da təhlil edilmişdir. Tədqiqatçı müqayisəli analiz əsasında belə bir nəticəyə gəlmişdir ki, azərbaycanlılara qarşı «Komsomolskaya pravda» (50) və «Moskovskiy komsomolets» (44) qəzetlərində daha çox qərəzli, «Nezavisimaya» (34) və «İzvestiya» (84)da isə nisbətən bitərəf mövqeli yazılar dərc olunmuş[2], lakin həmin «məqalələrdə etnik əlamətlərinə görə azərbaycanlılara qarşı ayrı-seçkiliyə çağırış istisna təşkil etmişdir».[3] A.Həsənov konkret fakt və arqumentlərlə etnik jurnalistikanın ölkədə tolerantlığın təntənəsi, təhsil və sosial-mədəni inteqrasiya, milli və ümumbəşəri dəyərlər ətrafında milli diasporun «çoxluğ»a konsolidasiyası istiqamətində rolunu araşdırmış və konkret olaraq «Azerros», «Azerbaydjanskiy Konqress» qəzetlərinin, «İRS-Naslediye» Beynəlxalq Azərbaycan jurnalının və diaspora məxsus internet resurslarının materiallarını və «İnter – Azərbaycan» televiziyasının fəaliyyətini elmi təhlil müstəvisinə çıxarmışdır. Bunlar xalqlarımız arasında mədəni əlaqələrdə milli

---

[1] Гасанов А.М. Средства массовой информации диаспор в структуре этнической журналистики (на примере СМИ азербайджанской диаспоры России). Дисс… канд. филол. наук. Москва, 2007, 203 с.
[2] Yenə orada, s.82-86.
[3] Yenə orada, s.85.

diasporun iştirakı kimi məsələlərin ətraflı işıqlandırılmasında bizə yardımçı olmuşdur. Bunu qeyd etmək lazımdır ki, dissertasiya işində erməni diasporuna məxsus KİV-nin antiazərbaycan və antitürk təbliğatına həsr olunmuş materiallarının geniş təhlilinə və ifşasına xüsusi yer ayrılmaması təəssüf doğurur.

İ.M.Ağayevin Azərbaycanda müasir milli-etnik proseslərə həsr olunmuş tədqiqat işində[1] ölkəmizdə etno-siyasi proseslərin səciyyəvi cəhətləri, milli azlıqların və azsaylı xalqların inkişafının sosial dinamikası və xarakterik xüsusiyyətləri, milli-etnik problemlərinin nizamlanmasının siyasi-hüquqi aspektləri, milli azlıqların hüquq və azadlıqlarının təmin olunması xüsusiyyətləri, milli-etnik proseslərdə münaqişəli vəziyyətlərin aradan qaldırılması yolları və s. məsələlər öyrənilmişdir. Təəssüf ki, burada Şərqi Avropa xalqların nümayəndələrindən yalnız ruslardan bəhs edilmişdir.[2] Faktların öyrənilməsi əsasında müəllif düzgün nəticə çıxarır ki, «Azərbaycan xalqının rus icması ilə ikitərəfli əlaqələri qarşılıqlı qonşuluq və dostluq münasibətlərinə əsaslanır və inkişaf edir. Bütün bunların rus sosial şovinist siyasəti ilə heç bir əlaqəsi yoxdur.[3]

L.Hüseynovanın Şərqi Avropa ölkələrində yaşayan milli azlıqlara həsr etdiyi sorğu kitabçasında azərbaycanlılardan heç bəhs edilməmiş, həmin dövlətlərin ictimai həyatında özünəməxsus yeri və rolu olan həmvətənlərimiz haqqında məlumat verilməmişdir.[4]

Azərbaycanın beynəlxalq mədəni əlaqələrindən bəhs edilən dərslikdə[5] həm mədəni əlaqələrin ayrı-ayrı sahələrinə, həm də dövlətlərarası ikitərəfli əməkdaşlığa dair məsələlərə nəzər salınmışdır.

Azərbaycanın xarici siyasət kursunu tədqiq edən müəlliflərdən Z.Bjezinskinin,[6] T.L.Tomas və J.Şullun,[1] A.S.Panarinin,[2]

---

[1] Ağayev İ.M. Müasir şəraitdə Azərbaycanda milli-etnik proseslər. Siy. elm. nam. … dis. Bakı, 2007, 151 s.

[2] Yenə orada, s.59-63.

[3] Yenə orada, s. 63.

[4] Гусейнова Л.Дж. Национальное меньшинства в странах Центральной и Восточной Европы 1945- 2002 гг. Справочник. Баку: Адилоглу, 2005, 80 с.

[5] Beynəlxalq mədəni əlaqələr. Dərslik. (M.C.Manafovanın və N.T.Əfəndiyevanın redaktəsi ilə. Bakı: Sabah, 2008, 660 s.

[6] Brzezinski Z. The Cancasus and New Geopolitical Realities. «Azerbaijan International», Summer, 1997.

S.İ.Çernyavskinin [3] və başqalarının əsərlərində mövzu ilə bağlı məsələlərə qismən toxunulmuşdur. Bu əsərlərdə Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolunun artdığı və dünya ölkələrinin respublikamız ilə siyasi, iqtisadi və mədəni əlaqələrə üstünlük verdiyi xüsusi olaraq vurğulanmışdır.

Şərqi Avropa ölkələrindən ancaq Ukrayna tədqiqatçıları qarşılıqlı mədəni əlaqələrin öyrənilməsinə xüsusi diqqət yetirmişlər. Bu baxımdan S.Qrabarın [4] və M.Naumenkonun, [5] V.Serqiyçukun [6] və başqa tədqiqatçıların elmi məqalələri xüsusilə seçilir. S.Qrabarın böyük həcmli məqaləsində Ukrayna oxucusu Azərbaycanın qədim tarixi, azərbaycanlıların sayı və dünyanın ayrı-ayrı ölkələrində məskunlaşması haqqında, İçərişəhər haqqında, o cümlədən müasir dövrdə Azərbaycan-Ukrayna mədəni-ədəbi əlaqələri barəsində geniş məlumat alır. M.Naumenkonun məqaləsində 1991-2008-ci illərdə teatr, təsviri incəsənət, musiqi, kinematoqrafiya və digər mədəniyyət sahələrində Ukrayna-Azərbaycan əməkdaşlığı, ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində mədəni əlaqələrin inkişafı məsələləri nəzərdən keçirilmişdir. Burada mədəni əlaqələrin formaları aşkara çıxarılmış, onların fəallaşması yolları müəyyən edilmişdir.

Belarus Respublikasındakı milli azlıqlara həsr olunmuş məcmuədə burada yaşayan azərbaycanlıların maddi və mənəvi mədəniyyətindən də bəhs edilmişdir.[7]

Rusiyalı jurnalist Y.Siqov ölkəmizin bütün bölgələrinə səyahət edərək tarixi ədəbiyyat və mənbə əsasında Azərbaycana dair maraqlı bir

---

[1] Thomas T.L., Shull J. Russian National Interests and the Caspian Sea // Perceptions. - December 1999-February 2000. - Vol. IV, № 4. - P. 75-96.

[2] Панарин А.С. Глобальное политическое прогнозирование.М.: Алгоритм, 2000, 352 с.

[3] Чернявский С.И.Новый путь Азербайджана. М.:Азер-Медиа, 2002, 352 с.

[4] Грабар С. Азербайджан // «Київська Русь» літературний журнал.Київ: ЗАТ «Віпол», 2008, № 8 (XXVIII), с.157-174.

[5] Науменко М. Украiнсько – Азербайджанське співробітництва в галузі культури (1991-2008) // Наукові розвідки молодих співробітництво в галузі культури. Соб. Док. 2010, №1, с.101-109.

[6] Сергійчук В.До питання про участь азербайджанців у національно-визвольному русі українського народу // Україна-Азербайджан: минуле, сучасне, майбутне / Збірник наукових праць. Київ, 2004, с.52-58.

[7] Беларусь – шматнацыянальная. Буклет – даведнік. Мінск: выдавецтва УП «РЫФТУР», 2004, s. 8- 11.

kitab yazmışdır.[1] Bu kitabda Qərb və Şərq arasında yerləşmiş Azərbaycanın zəngin mili-mənəvi dəyərlərinin və müasir mədəniyyətinin harmonik inkişafının şərhinə geniş yer verilmiş, respublika ərazisində yaşayan milli azlıqlara olan münasibətdən və mədəni əlaqələrdən bəhs edilmişdir. Müəllif tərəfindən Qərb və Şərq mədəniyyətlərinin özünəməxsus və təkrarolunmaz şəkildə çulğalaşdığı Azərbaycanla bağlı fikirləri faktik material baxımından çox maraqlı olub diqqəti cəlb edir: «İngilis yazıçısı R.Kiplinq demişdir ki, Qərb Qərbdir, Şərq də Şərqdir. Əgər taleyi Kiplinqi o zaman Azərbaycana gətirsəydi, onda o, çox tezliklə inanardı ki, Qərb və Şərq nəinki uzlaşa, hətta bir-birini müvəffəqiyyətlə tamamlaya bilər. Qonşu mədəniyyətlərlə zənginləşərək, digər xalqların qabaqcıl mədəni dəyərlərini mənimsəyərək, öz adət və ənənələrini qorumaq yəqin ki, respublikanın bu qloballaşan dünyada öz orijinal simasını saxlaması üçün yeganə şansıdır».[2]

Bolqarıstanın ölkəmizdə səfiri olmuş İ.Palçevin «Azərbaycan-Qafqaz pələngi» kitabında iki dövlət arasındakı mədəni əməkdaşlıqdan da bəhs edilmişdir.[3] Azərbaycan tarixi və mədəniyyətinin Bolqarıstanda təbliğ olunması və azərbaycanlıların milli-mənəvi dəyərləri ilə bolqarların yaxından tanış edilməsi baxımından bu kitabın əhəmiyyəti böyükdür.

Rumın tarixşünaslığında Azərbaycan Respublikası və Rumıniya arasında qarşılıqlı münasibətlərin öyrənilməsi sahəsində yeni səhifə açan azərbaycanlı tədqiqatçı F.Kərimlinin monoqrafiyasında[4] ölkəmizin qədim zamanlardan bu günümüzədək olan tarixi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, 1990-1994-cü illərdə hər iki respublikada baş verən sosial-siyasi proseslər, ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində enerji və nəqliyyat layihələri sahəsində əməkdaşlıq, ikitərəfli siyasi, iqtisadi və o cümlədən mədəni əlaqələr tədqiq ediliir.

---

[1] Сигов Ю. Азербайджан между Западом и Востокам (заметки российского журналиста). Стокгольм: CA& CCPress, 2008, 286 s.

[2] Siqov Y. Göst. əsəri, s. 282.

[3] Палчев И. Азербайджан-Кавазкият тигър. София: «Български писател» ЕООД, 2008, 126 c.; Yenə onun. Azərbaycan-Qafqaz pələngi ( tərcümə edən: S.Süleymanova və b.). Bakı: Mütərcim, 2009, 156 s.

[4] Karımlı F. Relațiile dintre Republica Azerbaidjan şi România (1993-2004): [pref.: prof. univ. dr. Tasin Gemil...]. Bucureşti: Top Form, 2010, 297 p.

Son illərdə Litva tədqiqatçıları da ölkələrimiz arasındakı mədəni əlaqələrin tarixini araşdırmağa maraq göstərməyə başlamışlar. Litvalı alim V.Kavaliaskus Azərbaycanşünaslığın aktual problemlərinə həsr olunmuş Beynəlxalq konfransda Azərbaycan – Litva mədəni - ədəbi əlaqələri tarixindən ətraflı və zəngin faktik materiallarla çıxış etmişdir.[1] Burada ədəbi əlaqələrin müasir səviyyəsindən bəhs edilmiş və ikitərəfli əməkdaşlığın inkişafında Litva Azərbaycanlıları Cəmiyyətinin sədri, tərcüməçi və ictimai xadim M.Həmzəyevin mühüm rol oynadığı xüsusilə dəyərləndirilmişdir.[2]

Tarixşünaslığın icmalından aydın şəkildə görünür ki, 1991-2008-ci illərdə Azərbaycan Respublikası ilə Şərqi Avropa ölkələri arasında mədəni əlaqələr tarixi müfəssəl öyrənilməmiş və ayrıca olaraq tədqiq edilməmişdir.

**Tədqiqatın mənbə bazası.** Dissertasiya işi yazılarkən istifadə olunmuş mənbələri əsasən aşağıdakı kimi qruplaşdırmaq olar:

Rəsmi sənədlər - beynəlxalq və regional təşkilatların mədəni irs, təhsil, elm və s. ilə bağlı konvensiyaları; Azərbaycan və Şərqi Avropa respublikaları, hökumət və müvafiq nazirliklər arasında bağlanmış ikitərəfli müqavilə və sazişlər, birgə imzalanmış bəyanat və bəyannamələr; Azərbaycan və Şərqi Avropa ali təhsil müəssisələri arasında imzalanmış müqavilə, saziş və protokollar; Azərbaycan və Şərqi Avropa ölkələrinin üzv olduqları regional təşkilatların mədəniyyətlə bağlı qəbul etdikləri qərar və qətnamələr, layihələr; dövlət və hökumətin mədəniyyət sahəsində siyasətinə dair qanunvericilik aktları, qərar və sərəncamlar; dövlət və hökumət başçılarının, liderlərlərin nitqləri,çıxışları, məruzələri və s. mənbələrin birinci qrupunu təşkil edir. Azərbaycan Respublikasının 2004-2008-ci illərdəki xarici siyasətini əks etdirən sənədlər məcmuələri [3] ikitərəfli mədəni əlaqələrə dair

---

[1] Кавалиаскус В. Страницы истории Азербайджанско - литовских культурных связей // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş I Beynəlxalq elmi konfransın materialları. 3-8 may, 2010-cu il. Bakı-Naxçıvan-Gəncə, s.351-356.

[2] Yenə orada, s.355-356

[3] Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi 2004. I hissə. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. Red.kol.sədri E.Məmmədyarov. Bakı: «GARİSMA» MMC,2009, 816 s.; Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi 2004. II hissə. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. Red.

materiallarla zəngindir. Bu sənədlər Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinin ümumi vəziyyətini, hər bir ölkə ilə əlaqədar inkişaf dinamikasını və xarakterik cəhətlərini, siyasi-hüquqi bazasını, məqsəd və vəzifələrini, üstünlük təşkil edən formalarını öyrənmək üçün olduqca dəyərli və faydalı mənbə sayıla bilər. Həmin mənbələrə Avropa Şurasının STEYC layihəsi çərçivəsində hazırlanmış və 2002-ci il oktyabrın 10-da AŞ-nın Mədəniyyət üzrə Rəhbər Komitəsinin iclasında təqdim olunmuş Azərbaycan Mədəniyyət siyasəti üzrə Milli Məruzəni də aid etmək olar [1]. Məruzə iki hissədən ibarətdir: birinci hissədə Azərbaycan mütəxəssislərinin[2], ikinci hissədə isə Rumıniya (M.Berza) və Estoniya (Y.Allik) nümayəndələrinin də daxil olduğu Avropa ekspertlərindən ibarət müstəqil qrupun mövqeyi[3] öz əksini tapmışdır. Burada mədəniyyətin qanunvericilik təminatı, ölkəmizdə mədəniyyət siyasətinin əsas istiqamətləri, mədəni irsin mühafizəsi və s. məsələlər geniş aspektdə öz əksini tapmış və mədəniyyət sahəsində beynəlxalq münasibətlərə[4] mühüm yer verilmişdir.

---

kol. sədri E.Məmmədyarov. Bakı: «GARİSMA» MMC, 2009, 1016 s.; Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi 2005. I hissə. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. Red.kol.sədri E.Məmmədyarov. Bakı: «GARİSMA» MMC, 2009, 648 s.; Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi 2005. II hissə /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. Red.kol.sədri E.Məmmədyarov. Bakı: «GARİSMA» MMC,2009, 688 s.; Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi 2006 /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. Red.kol.sədri E.Məmmədyarov. Bakı: «GARİSMA» MMC, 2008, 848 s.; Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi 2006. II hissə. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. Red.kol.sədri E.Məmmədyarov. Bakı: «GARİSMA» MMC,2009, 440s.; Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi 2007. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. Red.kol.sədri E.Məmmədyarov. Bakı: «GARİSMA» MMC, 2008, 704 s.; Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi 2007. II hissə. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. Red.kol.sədri E.Məmmədyarov. Bakı: «GARİSMA» MMC, 2009, 1040 s.; Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi 2008. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. Red. kol. sədri E.Məmmədyarov. Bakı: «GARİSMA» MMC, 2009, 656 s. və s.

[1] Azərbaycanda mədəniyyət siyasəti. Bakı: Nağıl evi, 2004, 232 s.

[2] Yenə orada, s. 3-162.

[3] Yenə orada, s.163-199.

[4] Yenə orada, s. 76-81, 191-197.

Mənbələrin ikinci qrupuna arxiv materiallarını aid etmək olar. Belə ki, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin (IV Ərazi şöbəsi - Şərqi Avropa ölkələri) və Azərbaycan Respublikası Təhsil Nazirliyinin cari arxivləri mədəni əlaqələrin ayrı-ayrı sahələrinin öyrənilməsinə dair zəngin materiallar vermişdir. Həmçinin, ədəbiyyat sahəsində əlaqələrə, yazıçı, şair və jurnalistlərin qarşılıqlı işgüzar səfərlərinə dair materiallar Azərbaycan Yazıçılar İttifaqının, incəsənət sahəsindəki əməkdaşlığa aid materiallar Azərbaycan Bəstəkarlar İttifaqı və Azərbaycan Rəssamlar İttifaqının beynəlxalq əlaqələr şöbələrinin cari arxivlərindən əldə edilmişdir.

Mənbələrin üçüncü qrupunu dövrü mətbuat təşkil edir. Tədqiq olunan mövzu ilə bağlı Azərbaycan və Şərqi Avropa ölkələrinin qəzet və jurnallarındakı zəngin materiallar mühüm mənbə sayılır. Belə ki, Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinin bütün sahələri, kütləvi-mədəni tədbirlər, mədəniyyət və incəsənət xadimlərinin qarşılıqlı yaradıcılıq səfərləri haqqında «Azərbaycan», «Xalq», «Mədəniyyət» «Respublika», «Pəncərə», «Kino+», «Ədəbiyyat», «525-ci» və b. qəzetlərdə, «Azərbaycan», «Ulduz», «Xəzər», «Mədəni-Maarif», «Ölkəm», «İrs-naslediya» və b. jurnallarda, «Musiqi dünyası», «İncəsənət» və «Qobustan» və b.toplularda xeyli materiala rast gəlinir. Eyni zamanda, «Вопросы языкознания», «Россия и мусульманский мир»(Rusiya), «Київська Русь», «Політика і час» «Український форум» və «Літературна Україна» «День», «Надзвичайна ситуація» (Ukrayna), «Literatura ir menas» «Respublika», «Эхо Литвы», «Lietuvos ritas» (Litva), «Вести Сегодня», «Телеграф» (Latviya), «Молодежь Эстонии», «Мозаика» (Estoniya), «Ежедневная газета» (Moldova), «Rurociagi» (Polşa), «Replica», «Demineata», «Realitatea Romaneasca», «Hayat», «Zaman», «Mierciri» (Rumıniya) və s. qəzet və jurnallarda Azərbaycan mədəni irsindən, o cümlədən qarşılıqlı mədəni əlaqələrin bu və digər tərəfindən bəhs edən materiallar öz əksini tapmışdır.Bu istiqamətdə diaspor təşkilatlarının, mədəniyyət mərkəzlərinin qəzet və jurnallarının rolunu qeyd etmək lazım gəlir. Rusiyada Azərbaycan diasporuna məxsus «Azerbaydjanskiy Konqress», «Azerros» və s. qəzetlər çıxır. 2007-ci ildən nəşr edilən «Baku» jurnalı Azərbaycan mədəniyyətinin, milli dəyərlərinin Rusiya ictimaiyyətinə

çatdırılmasında mühüm rol oynayır. Jurnalın səhifələrində mədəniyyətlərarası əməkdaşlıq məsələlərinə də geniş yer verilir. Ukraynada «Qolos Azerbaydjana» və «Oqni Azerbaydjana», Belarusda «Qobustan», Moldovada «Araz», Azərbaycanda və Bolqarıstanda «Akkord», Estoniyada «Türk və Qafqaz dünyası» və s. qəzet və jurnallarda da mədəni əməkdaşlığa dair materiallara rast gəlinir.

Dissertasiya işi yazılarkən elektron (internet) resurslarından mənbə qismində istifadə edilmişdir. Hazırda mədəniyyətlərin, informasiyanın dünyaya çıxarılmasında internet daha çevik kommunikasiya vasitəsi sayılır. Son illər mədəniyyətimizin dünyada (o cümlədən Şərqi Avropa ölkələrində) təbliği istiqamətində «day.az», «mediaforum.az», «apa.az», «kultaz.com», «lit.az» saytları, o cümlədən müvafiq qurum və nazirliklərin («mfa.gov.az», «mct.gov.az», «diaspora.az» və s.) və mədəni birliklərin, diaspor təşkilatların («az.ee», «azkongress.com», «vakmos org» «fnkaa.ru», «azeri.ru» və s.) saytları əhəmiyyətli rol oynayır. Bu saytlarda respublikamızın Şərqi Avropa ölkələri ilə mədəni əlaqələrinə dair zəngin informasiya və materiallar öz əksini tapmışdır. Azərbaycanın ədəbiyyat portalı olan «lit.az» saytında Şərqi Avropa xalqlarının ədəbiyyat nümunələrindən çoxlu tərcümələr diqqəti cəlb edir. Mədəni əlaqələrin müxtəlif tərəflərini araşdırarkən Şərqi Avropa ölkələrinə məxsus internet saytlarından («bukvite.bg», «Koleso», «Точка зрения», «gazetapolska.pl», «slk.karkov.ua» və s.) da mənbə kimi istifadə edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində qarşıya qoyulan başlıca məqsəd 1991-2008- ci illərdə Azərbaycan Respublikasının Şərqi Avropa ölkələri ilə mədəni əlaqələrini tədqiq etməkdən ibarətdir. Dissertant bu məqsədə çatmaqdan ötrü konkret olaraq aşağıdakı məsələləri öyrənməyi vəzifə kimi qarşıya qoymuşdur:

-Azərbaycan Respublikasının Şərqi Avropa ölkələri ilə mədəni əlaqələrinin ümumi inkişaf meyllərini aydınlaşdıraraq beynəlxalq münasibətlər sistemində yerini və rolunu müəyyən etmək;

-mədəni əlaqələrin inkişafında ümummilli lider Heydər Əliyevin rolunu və Prezident İlham Əliyevin fəaliyyətini göstərmək;

-qloballaşmanın Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinə təsirini müəyyənləşdirmək;

-tarix elminin faktlara əsaslandığını nəzərə alaraq Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinə dair faktik materialın toplanması, elmi

sücgəcdən keçirilməsi, sistemləşdirilməsi və nəzəri ümumiləşdirmələr edilməsi;

-tarixi-müqayisəli analiz əsasında mədəni əlaqələrin əsas formalarını araşdırmaq;

-kitab nəşri və mübadiləsi, kitab sərgiləri və yarmarkaları sahəsində mədəni əlaqələri tədqiq edərək real vəziyyəti göstərmək;

-musiqi, teatr, kino, televiziya, radio və təsviri incəsənətin qarşılıqlı mədəni əlaqələrdə yerini müəyyən etmək;

-təhsil,elm, idman və turizm sahələrində mədəni əməkdaşlığı tədqiq etmək;

-ədəbiyyat və incəsənət xadimlərinin yaradıcılıq əlaqələrini təhlil etmək;

-qardaşlaşmış şəhərlər hərəkatının, kütləvi-mədəni tədbirlərin mədəni əlaqələrin inkişafında rolunu araşdırmaq;

-milli diaspor, dostluq cəmiyyətləri və mədəniyyət mərkəzlərinin mədəni əlaqələrdə iştirakını tədqiq etmək;

-Şərqi Avropa xalqlarının respublikamızda yaşayan nümayəndələrinin, milli-mədəni birliklərinin fəaliyyətini nəzərdən keçirmək;

-Şərqi Avropa ölkələrində azərbaycanlı və türk icmaları arasında əməkdaşlıq məsələlərini nəzərdən keçirmək;

-tədqiq edilən problem üzrə mənbə, sənəd, ədəbiyyat, arqument və konkret faktların müfəssəl icmalı əsasında Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrin bütöv və tamamlanmış nəzəri modelinin qurulması;

-Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinin inkişafına mane olan amilləri müəyyənləşdirmək və onların aradan qaldırılması yollarını aydınlaşdırmaq.

-ermənilərin milli-mədəni irsimizi və dəyərlərimizi məhv etmək və yaxud onu öz adına çıxarmaq cəhdlərinə, işğal olunmuş Azərbaycan ərazilərində erməni separatçılarının mədəni terror siyasətinə Şərqi Avropa ölkələrinin münasibətini və mövqeyini aydınlaşdırmaq.

**Dissertasiya işinin nəzəri - metodoloji əsasını** mədəni determinizm, mədəni əlaqələrdə milliliklə bəşəriliyin dialektik vəhdəti,mədəni əlaqələrin inkişafına dialektik yanaşma prinsipləri, tarixçi alimlərin Azərbaycan Respublikasının beynəlxalq mədəni əlaqələrinin, dövlətlərarası və xalqlararası mədəni əməkdaşlığın təhlilinə dair tədqiqatlarının müddəaları və onların problemə nəzəri yanaşmaları təşkil edir. Eyni zamanda, Ümummilli lider Heydər Əliyev və

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, fərman və sərəncamlarından irəli gələn konseptual yanaşmalar, Azərbaycan və Şərqi Avropa respublikaları arasında mədəniyyət sahəsində əməkdaşlığın inkişafına dair dair saziş və müqavilələr, müvafiq beynəlxalq konvensiyalar və Milli Məclisin qəbul etdiyi qanunlar, Xarici İşlər, Mədəniyyət və Turizm və Təhsil nazirliklərinin, Diasporla İş üzrə Dövlət Komitəsinin normativ-hüquqi sənədləri dissertasiya mövzusunun araşdırılmasında mühüm nəzəri – metodoloji əhəmiyyət kəsb etmişdir.

Müəllif problemin araşdırılmasında tarixilik prinsipi, faktoloji şərh, müqayisəli təhlil, problemə kompleks yanaşma metodlarından istifadə etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi konkret olaraq aşağıdakıları özündə ehtiva edir:

- Azərbaycan tarix elmində ilk dəfə olaraq 1991-2008-ci illəri əhatə edən Azərbaycan-Şərqi Avropa mədəni əlaqələri zəngin mənbə və ədəbiyyat əsasında xronoloji ardıcıllıqla və problemlər üzrə ayrı-ayrılıqda tədqiq olunmuş, bu əlaqələrin konkret faktları geniş kompleks analiz müstəvisinə çıxarılmış, sistemləşdirilmiş, ümumiləşdirilmiş və onların nəticələri müəyyənləşdirilmişdir;
- mədəni əlaqələri şərtləndirən amillər üzə çıxarılmış, onların siyasi-hüquqi əsasları tutarlı fakt və arqumentlərlə göstərilmişdir;
- mədəniyyətlərarası əməkdaşlığın hər iki tərəfin beynəlxalq mədəni əlaqələrində əhəmiyyətli və qarşılıqlı-faydalı yer tutduğu arqument və faktlarla əsaslandırılmışdır;
- Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinin istiqamətləri, onların reallaşdırılması vasitələri, yolları və formaları hərtərəfli araşdırılmışdır;
- qarşılıqlı mədəni əməkdaşlığın çoxtərəfli münasibətlərdə yeri və regional nəticələri təhlil edilmiş, Ümumavropa təhlükəsizliyinin formalaşmasında Baltik, Qara və Xəzər dənizləri hüdudundakı bölgə dövlətləri və xalqları arasında siyasi və iqtisadi əlaqələrlə yanaşı, mədəniyyət sahəsində də əməkdaşlığın inkişaf etdirilməsi və dərinləşdirilməsi ilə bağlı fikir və mülahizələr irəli sürülmüş, o cümlədən, vahid mədəniyyət məkanının yaradılması kimi məsələlər xüsusi olaraq vurğulanmışdır;

-Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinə dair mənbə və ədəbiyyatın təkzib olunmaz məlumatları əsasında sübut edilir ki,

dövlətimizin mədəniyyət siyasətinin əsasını və prioritet istiqamətini milli-mədəni dəyərlərin qorunub saxlanması və təbliği, mədəniyyətlərarası əməkdaşlıq, xalqlar arasında dosluğun, sülhün və əməkdaşlığın inkişafı təşkil edir;

- əsaslandırılır ki, Şərqi Avropa ölkələri ilə mədəni əlaqələrin genişlənməsində Azərbaycanın Avropaya inteqrasiya kursu götürməsi ilə yanaşı, qarşı tərəfin Azərbaycanla əlaqədar siyasi, iqtisadi maraqları, enerji təhlükəsizliyi siyasəti və nəqliyyat-kommunikasiya dəhlizi amili də mühüm rol oynamışdır;
- Azərbaycan-Şərqi Avropa beynəlxalq mədəni əlaqələri mədəni qloballaşma və milli-mədəni dəyərlərin sıx vəhdətində araşdırılmış və dünya inteqrasiyasının istiqamətlərindən biri kimi təqdim olunmuşdur;
- qloballaşan dünyada mədəni inteqrasiyanın dərinləşməsi kontekstində Azərbaycanın mədəni-humanitar təhlükəsizliyi məsələləri elmi təhlil süzgəcindən keçirilmişdir;
- Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinin inkişafını əngəlləyən amillər müəyyənləşdirilmiş, onların nizamlanması yollarına aydınlıq gətirilmişdir;
- Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinin imkanlarından həmin ölkələrdə yaşayan erməni diasporunun və lobbisinin antiazərbaycan fəaliyyətinin ifşası və işğal olunmuş ərazilərimizdə erməni separatçılarının mədəni terror siyasətinin həmin respublikaların ictimaiyyətinin diqqətinə çatdırılması üçün istifadə edilməsi ilə bağlı fikir və mülahizələr irəli sürülmüşdür;
- elmi dövriyyəyə tədqiqat mövzusu ilə bağlı çoxlu yeni sənəd və material, o cümlədən, xaricdə nəşr olunmuş ədəbiyyat daxil edilmişdir;
- tədqiqatın yekununda əldə edilən nəticələr ardıcıl, sistemli və konkretdir;
- qarşılıqlı mədəni əlaqələrin inkişaf yolları barədə elmi əsaslandırılmış mülahizələr, proqnozlar, praktik tövsiyələr irəli sürülmüşdür;
- tutarlı faktlarla sübuta yetirilir ki, 1991-2008-ci illəri əhatə edən mədəni əlaqələr bərabərhüquqlu tərəfdaşlıq prinsipinə əsaslanan, sistemli, dolğun və müxtəlif layihələrlə gerçəkləşdirilən mədəni əməkdaşlığa çevrilmiş, Azərbaycan və Şərqi Avropa ölkələrini bir-birinə daha da yaxınlaşdırmış və etimad mühiti yaratmış, ümumi dəyərləri və oxşar xüsusiyyətləri ortaya çıxarmış və uğurlu perspektivlərə malikdir.

Beləliklə, qeyd olunan mövzu ilə bağlı aparılan tədqiqat Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinin başlıca inkişaf meylləri, formaları və növləri haqqında, ədəbiyyat, incəsənət, təhsil və elm sahələrindəki ikitərəfli əməkdaşlıq haqqında, mədəni-kütləvi tədbirlərin və milli-mədəni birliklərin bu əlaqələrin dərinləşməsindəki rolu barədə aydın və ətraflı təsəvvür yaradır, milli tarixşünaslıqda bu sahədə olan boşluğu aradan qaldırır və xalqlarımız arasında əməkdaşlığın inkişaf perspektivlərini proqnozlaşdırmağa imkan verir.

**Tədqiqatın obyektini** 1991-2008-ci illərdə Azərbaycan Respublikası və Şərqi Avropa ölkələri arasında mədəniyyət sahəsində mövcud olmuş əlaqələrin öyrənilməsi təşkil edir. Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi «Dünyanın iqtisadi və sosial coğrafiyası» dərsliyində göstərildiyi kimi, Şərqi Avropaya keçmiş sosialist sistemi ölkələri – Polşa, Rumıniya, Bolqarıstan, Xorvatiya, Bosniya və Herseqovina, Albaniya və Makedoniya, həmçinin hazırda müstəqil dövlətlər olan keçmiş SSRİ respublikaları – Ukrayna, Belarus, Latviya, Litva, Estoniya, Moldova, Rusiya daxildir. 1991-2008-ci illərdə Azərbaycan Respublikası və Xorvatiya, Bosniya və Herseqovina, Albaniya və Makedoniya arasında mədəni əlaqələr son dərəcədə zəif olduğundan elmi tədqiqat Şərqi Avropa ölkələrindən Polşa, Rumıniya, Bolqarıstan, Ukrayna, Belarus, Latviya, Litva, Estoniya, Moldova və Rusiyanı əhatə edir.

**Tədqiqatın predmeti** Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinin dinamik inkişafı, onun həyata keçirilmə metodları, formaları, növləri və səciyyəsi, bu əməkdaşlığa siyasi-hüquqi baza yaradan saziş və müqavilələr, sənədlər, birgə qəbul edilmiş bəyanat və bəyannamələr və s.-dir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin əsas müddəaları və nəticələrindən istifadə oluna bilər:

- dərslik və dərs vəsaitlərinin hazırlanmasında;
- Azərbaycanın diplomatiya tarixinə və müasir beynəlxalq mədəni əlaqələrinə dair ümumiləşdirilmiş kitabların yazılmasında;
- Azərbaycan-Şərqi Avropa münasibətlərinin müxtəlif tərəflərinə dair gələcək elmi-tədqiqat işlərinin aparılmasında;
- Vətən tarixi və Beynəlxalq münasibətlər tarixinə dair ümumiləşdirilmiş əsərlərin yazılmasında;
- ali təhsil müəssisələrində mühazirələrin oxunmasında və seminar məşğələlərinin keçirilməsində;

- Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi,Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikası Təhsil Nazirliyinin Şərqi Avropa ölkələri ilə mədəniyyət,elm və təhsil sahəsində fəaliyyətinin planlaşdırılmasında.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın əsas müddəaları və nəticələri müəllifin monoqrafik kitabında, 40-dək məqalə, tezis və konfrans materiallarında, eyni zamanda tədris proqramlarında, Bakı Slavyan Universitetinin Beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsində keçilən fənlərin tədrisində öz əksini tapmışdır. Mövzu ilə bağlı dissertantın xaricdə - Rusiya, Ukrayna, Qazaxıstan, Polşa və Bolqarıstanda məqalə və konfrans materialları çap edilmişdir. Əsas müddəalar respublika və beynəlxalq elmi konfranslarda, seminarlarda edilən çıxış və məruzələrdə aprobasiya olunmuşdur. Ümumiyyətlə, çap olunmuş məqalə və konfrans materialları işin bütün fəsillərini və ümumi məzmununu əhatə edir.

Dissertasiya işi Bakı Slavyan Universitetinin Avropaşünaslıq kafedrasının 18 dekabr 2010-cu il tarixli iclasında (protokol № 5) müzakirə olunaraq müdafiəyə tövsiyə edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, 4 fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı, praktik tövsiyələr və əlavələrdən ibarətdir. Fəsillər yarımfəsillərə bölünmüşdür.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **«Giriş»** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın xronoloji çərçivəsi, mövzunun öyrənilmə səviyyəsi və mənbə bazası açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti müəyyən olunur, elmi yeniliyi əsaslandırılır, nəzəri-metodoloji əsasları, nəzəri və praktik əhəmiyyəti göstərilir, həmçinin disseratsiya işinin aprobasiyası və quruluşu haqqında məlumat verilir.

**«Azərbaycan Respublikasının Şərqi Avropa ölkələri ilə mədəni əlaqələri – beynəlxalq münasibətlərin tərkib hissəsi kimi»** adlanan birinci fəsil üç yarımfəsildən ibarətdir.

**«Azərbaycan Respublikasının Şərqi Avropa ölkələri ilə mədəni əlaqələrini şərtləndirən amillər və onların siyasi-hüquqi əsasları»** adlanan birinci yarımfəsildə müəyyən olunur ki, ölkələrimiz arasında mədəniyyət sahəsində əməkdaşlığı kifayət qədər ciddi siyasi, tarixi, iqtisadi, geostrateji və başqa amillər şərtləndirmişdir. Azərbaycanın Şərqi Avropa ölkələri ilə mədəni əlaqələri zəngin və çoxəsrlik tarixə malik olub, möhkəm təməllərə söykənir. Mədəni əlaqələri şərtləndirən amillərin arasında Azərbaycan və Şərqi Avropa dövlətləri başçılarının siyasi iradəsi, qarşılıqlı dostluq münasibətləri və mədəniyyət sahəsində əməkdaşlığa səy göstərmələri mühüm yer tutmuşdur. Ümummilli lider Heydər Əliyevin Şərqi Avropa ölkələri ilə bağlı götürdüyü siyasi xəttin prezident İlham Əliyev tərəfindən ardıcıl və fəal sürətdə davam etdirilməsi Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinin inkişafını şərtləndirmişdir. Dövlət başçılarının bu dostluq münasibətləri, əməkdaşlığın dərinləşməsinə yönəlmiş siyasi iradələri xalqlarımızı bir-birinə yaxınlaşdırmış, xalq diplomatiyasına təkan vermiş, mədəni əlaqələrin genişlənməsini və inkişafını şərtləndirmişdir. Mədəni əlaqələr dövlətlərarası, hökumətlərarası, nazirliklərarası, dövlət, qeyri-dövlət və ictimai qurumlararası müqavilə və sazişlər əsasında qurulmuş və inkişaf etmişdir. İmzalanmış müqavilə və sazişlərdə mədəni əlaqələrin məqsədi, vəzifələri, forma və növləri və s. müəyyənləşdirilmişdir.

Birinci fəslin **«Azərbaycan dövlətinin mədəniyyət siyasəti - Şərqi Avropa ilə mədəni əlaqələrin təminat vasitəsi kimi»** adlı ikinci yarımfəslində müstəqil dövlətimizin mədəniyyət siyasətinin əsas prinsipləri, istiqamətləri və prioritetləri təhlil edilir. Mədəni

əməkdaşlıqda milli və ümumbəşəri maraqların nəzərə alındığı xüsusi olaraq vurğulanır. Şərqi Avropa ölkələri ilə mədəni əlaqələri ardıcıl surətdə inkişaf etdirən Azərbaycan dövləti ölkənin mədəni təhlükəsizliyinin təminatını diqqət mərkəzində saxlamışdır. Dövlətimizin xarici siyasətinin, beynəlxalq mədəni əlaqələrinin mahiyyətini açıqlayan Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev vurğulamışdır: «Bu gün artıq bütün bəşəriyyət, bütün xalqlar və millətlər bilirlər ki, mədəniyyət, elm və təhsil insanların ən böyük mənəvi dəyərləri olaraq sabit inkişafı təmin edən mühüm amillərdən biridir. Qlobal dəyişikliklər baş verən bir dövrdə biz bütün səylərimizi bu böyük sərvətin qorunub saxlanmasına sərf etməliyik».[1]

Azərbaycanın Şərqi Avropa ölkələri ilə beynəlxalq mədəni əlaqələrinin həyata keçirilməsində Xarici İşlər Nazirliyinin nəzdində yaradılmış YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, Mədəniyyət və Turizm Nazirliyi, Təhsil nazirliyi, Diasporla İş Üzrə Dövlət Komitəsi, Azərbaycan Mədəniyyətinin Dostları Cəmiyyəti və Heydər Əliyev Fondu və bu qurumların rəhbəri Mehriban Əliyeva mühüm və əhəmiyyətli rol oynamışlar. Burada Azərbaycan Yazıçılar, Azərbaycan Bəstəkarlar və Azərbaycan Rəssamlar ittifaqlarının ədəbiyyat və incəsənət sahələrindəki əməkdaşlıqda göstərdikləri fəaliyyət elmi cəhətdən işıqlandırılır.

Birinci fəslin üçüncü yarımfəsli **«Azərbaycan və Şərqi Avropa ölkələri arasında regional və beynəlxalq təşkilatlar çərçivəsində mədəni əməkdaşlıq»** adlanır. Azərbaycan Respublikası YUNESKO, Avropa Şurası, MDB-nin Mədəni Əməkdaşlıq Şurası, GUAM və Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) kimi beynəlxalq və regional təşkilatlar çərçivəsində Şərqi Avropa ölkələri ilə mədəniyyət sahəsində əlaqələr qurmuş və inkişaf etdirmişdir. YUNESKO-da M.Füzulinin 500 illik, Q.Qarayevin 80 illik və «Kitabi-Dədə Qorqudun» 1300 illik yubileylərinin keçirilməsi, 1999-cu ildə YUNESKO, AR Təhsil Nazirliyi və Milli Komissiya tərəfindən «Yeni qlobal konteksdə Azərbaycanda tərcümə, dilmanclıq və terminologiyanın gələcək perspektivləri» adlı Konfransın təşkil edilməsi və s. mədəni irsimizin

---

[1] Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. // «Azərbaycan» qəz., Bakı, 2000, 30 dekabr, № 300(2712).

təbliğində əhəmiyyətli rol oynadı. Azərbaycan və Şərqi Avropa ölkələrinin üzvü olduqları MDB, GUAM və QDİƏT-in mədəniyyət sahəsində ümumi maraq və dəyərlərin aşkar edilməsi istiqamətində fəaliyyətləri və s. xalqlarımız arasında əməkdaşlıq münasibətlərinin yeni səviyyəyə qaldırılmasına xidmət etmişdir. GUAM ölkələrinin ədəbi çevrələri arasında əlaqələri canlandırmaq, GUAM ölkələrini bir-birlərinə daha da yaxınlaşdırmaq üçün ədəbiyyatın rolundan lazımınca istifadə etmək məqsədilə bu ölkələri təmsil edən yazıçıların (Ukraynadan D.Stus, R.Kramor və S.Qrabar; Moldovadan V.Larçenko) Bakıya səfərləri və PENGUAM-ı təsis etmələri, Bakıda GUAM ölkələri yazıçılarının əsərlərinin ayrıca nəşri və təqdimatı tədqiq edilən illərdə Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinin əlamətdar hadisələrindən biri olmuşdur. 1993- cü ildə QDİƏ PM-in üzv dövlətləri Qara dəniz mədəniyyət konvensiyasını imzalayaraq Qara dəniz hövzəsində mədəni əməkdaşlığın inkişafına mühüm töhfə verdilər. 2008-ci il dekabrın 2-3-də Avropa Şurasının üzvü olan dövlətlərin mədəniyyət nazirlərinin «Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır» mövzusunda keçirilən Bakı konfransı Azərbaycan Respublikasının müxtəlif xalqlar və dövlətlər arasında dialoqu möhkəmləndirməyə və daha da inkişaf etdirməyə yönələn fəaliyyətinin bariz nümunəsi oldu. Ümumiyyətlə, mədəniyyət sahəsində əməkdaşlıq Azərbaycan və Şərqi Avropa ölkələri arasında regional və beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli münasibətlərin əsas və mühüm istiqamətlərindən biri olmuşdur. Vahid mədəniyyət məkanının yaranması prosesinə müsbət təsir göstərmişdir. Çoxtərəfli münasibətlər çərçivəsində mədəni əlaqələrin genişlənməsi və dərinləşməsinə baxmayaraq Şərqi Avropa dövlətləri Rumıniya və Ukrayna respublikaları istisna olmaqla Dağlıq Qarabağ probleminin ədalətli həllində Azərbaycana kifayət qədər dəstək verə bilməmişlər. Belə ki, Baltik, Qara və Xəzər dənizləri arasındakı məkanda qarşılıqlı mədəni əlaqələrdən bəhrələnən bu ölkələr beynəlxalq və regional təşkilatlarda haqq səsimizi birmənalı müdafiə etməmiş, Azərbaycanın işğal altında olan ərazisindəki mədəniyyət abidələrini məhv edən və ya özününküləşdirən ermənilərə öz etirazını bildirməmişdir.

İkinci fəsil **«Azərbaycan və Şərqi Avropa ölkələri arasında ədəbiyyat və incəsənət sahəsində əməkdaşlıq»** adlanır və beş yarımfəsildən ibarətdir.

Bu fəslin **«Kitab nəşri sahəsində əməkdaşlıq»** adlanan birinci yarımfəslində kitab, qəzet və jurnallarda tərcümə edilmiş ədəbiyyatların nəşri, kitabların elektron versiyası, ayrı-ayrı qurumların kitab çapı istiqamətində fəaliyyəti işıqlandırılır. Müəyyən edilir ki, klassik və müasir bədii, elmi və siyasi əsərlərin, şifahi xalq yaradıcılığının tərcümə edilərək çap edilməsi nəşr sahəsində əməkdaşlığın başlıca forması olmuşdur. 1991-2008-ci illərdə Azərbaycan ədəbiyyatının müxtəlif nümunələri Şərqi Avropa dillərinə tərcümə edilərək çap olunmuşdur. Bunların içərisində ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin siyasi fəaliyyətinə, xalqımızın Milli-mədəni irsinə və Qarabağ probleminə dair əsərlər mühüm yer tutmuşdur. Azərbaycan yazıçıları, şairləri və mətbuat işçiləri Şərqi Avropa ölkələrində dostluq və əməkdaşlığın tərənnümçüsü kimi tanınmış və nüfuz qazanmışlar. Rusiya və Ukraynanın nüfuzlu jurnalları öz saylarından birini Azərbaycana xüsusi olaraq həsr etməklə nəşr sahəsində əməkdaşlığa yeni forma gətirmişlər. Azərbaycan müəlliflərinin tərəfdaş ölkələrin (Rusiya, Ukrayna, Rumıniya və s.) dövri mətbuatında, ədəbi və elmi-publisistik dərgilərində məqalələrlə çıxışları da ənənəvi olmuşdur. Qarşılıqlı əlaqələrdə kitab nəşrinin nəşriyyat və ədəbi portallar arasında bağlanmış sazişlər əsasında həyata keçirilməsi hallarına da rast gəlinmişdir. Eyni zamanda, Şərqi Avropa xalqlarının ədəbi inciləri ana dilimizə tərcümədə işıq üzü görmüşdür. Azərbaycanda rus, Ukrayna, Litva, polyak, bolqar və rumın ədəbiyyatından nümunələrin tərcüməsi və nəşri sahəsində uğur qazanılmışdır. Kitabların nəfis şəkildə çap edilməsində Heydər Əliyev Fondu mühüm rol oynamışdır.

**«Kitab və jurnal (çap və elektron nəşr) mübadiləsi, sərgiləri və yarmarkaları»** adlı ikinci yarımfəsildə Azərbaycan və Şərqi Avropa ölkələri arasında kitab və jurnalların çap və elektron mətnlərinin mübadilə edilməsi və yayılması, kitab sərgi və yarmarkaları məsələləri açıqlanmışdır. Keçən əsrin 90-cı illərində kitab nəşri və mübadiləsi sahəsində əməkdaşlıq keçid dövrünün çətinlikləri, maliyyə azlığı və tipoqrafiyaların maddi-texniki bazasının geriliyi və s. səbəbindən zəif olmuş, sonrakı illərdə isə dolğun və dinamik inkişaf tempi ilə diqqəti cəlb etmişdir. Azərbaycan kitab nəşri və mübadiləsi sahələrində Şərqi Avropa ölkələrindən Rusiya, Ukrayna, Litva, Polşa və Rumıniya ilə əlaqələri daha dolğun və məzmunlu olmuşdur. Kitab mübadiləsi sahəsində əməkdaşlıq başlıca olaraq AMEA MEK, M.F.Axundov adına Milli Kitabxana, Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin

Prezident Kitabxanası, Azərbaycan Respublikası Parlament Kitabxanası, BDU-nun və BSU-nun Elmi kitabxanaları və digərləri tərəfindən həyata keçirilmişdir. Son illərdə ənənəvi çap mətnlərinin (kitab, qəzet, jurnal və s. nəşrinin) mübadiləsini elektron variantında informasiya (elektron KİV və kitablar, video və audio kasetlər, CD və DVD disklər, internet) mübadiləsi üstələməyə başlamışdır.

İkinci fəslin üçüncü yarımfəsli **«Musiqi sahəsində mədəni əlaqələr»** adlanır. 1991-2008-ci illərdə Azərbaycan musiqisi Respublikamızın Şərqi Avropa ölkələri ilə mədəni əməkdaşlığında, xalqlarımız arasında qarşılıqlı anlaşmada böyük rol oynamışdır. Azərbaycan və Şərqi Avropa ölkələrinin musiqi sahəsində mədəni əməkdaşlığı musiqiçilərin qastrol səfərləri, not, qrammofon valları və disklərin göndərilməsi, bəstəkar və ifaçıların yaradıcılıq əlaqələri, beynəlxalq musiqi festivallarında və müsabiqələrində iştirak və başqa formalarla həyata keçmişdir. Azərbaycan və Şərqi Avropa ölkələrinin məşhur sənətkarlarına həsr olunmuş yubiley gecələri, Vokalçıların Bülbül adına I, II, III Beynəlxalq müsabiqələri, Muzıka druzey», «Muzıka Nova», «Musiqinin böyük ipək yolu» I Bakı klassik musiqi festivalı və s. əslində musiqiçilərin sıx ünsiyyətinin, xalqlarımız arasında dostluq ənənələrinin bərpasında və canlanmasında mühüm rol oynadı. Azərbaycan və Şərqi Avropa musiqiçiləri arasında işgüzar əlaqələrin yaradılmasında mühüm rol oynayan «Yeni musiqi» cəmiyyəti» və Buta» incəsənət mərkəzinin təşkilatçılığı ilə Moskva və digər şəhərlərdə Ş.Növrəslinin caz triosu, xanəndə A.Qasımovun konserti, V.Mustafazadə adına böyük caz festivalı kim neçə-neçə proqram və layihələr həyata keçirilmişdir. Bir çox milli musiqi əsərlərimizin və bəstəkarlarımızın təsadüfən və ya bilərəkdən bəzi Şərqi Avropa ölkələrində ermənilərə aid təqdim olunmasını paraqrafda mədəni əməkdaşlığa mənfi təsir göstərən amillərdən biri kimi qiymətləndirilir. Məsələn, rusiyalı alim Kiril Tomovun «Yaradıcı ittifaqlar: Sovet bəstəkarların professional təşkilatları, 1939-1953-ci illər» kitabının 249-cu səhifəsində Stalin mükafatı üzrə Yaradıcı Şuranın üzvləri sadalanarkən müəllif tərəfindən Rusiyadan bəstəkar Şostakoviçin, Ukraynadan opera müğənnisi Litvinenko Velegemountun, Belarusdan opera müğənnisi Aleksandrovskayanın, «Ermənistandan isə Qara Qarayevin bu şuraya üzv olduğunu» yazmasına 2007-ci ilin avqustunda AR Mədəniyyət və Turizm Nazirliyi RF Hökumətinə göndərdiyi məktubda haqlı olaraq öz etirazını bildirmişdir. 2007-ci il noyabr ayının əvvəllərində tanınmış

fiqurlu konkisürənlər cütlüyünün - Saşa Savelyeva və Aleksandr Saxnovskinin Rusiya telekanallarından birində nümayiş etdirilmiş çıxışı zamanı «Erməni rəqsi» adı ilə istifadə etdiyi musiqi əslində Azərbaycan bəstəkarı Tofiq Quliyevin «Sənə də qalmaz» mahnısının melodiyasıdır. Azərbaycanın Rusiyadakı səfirliyinin mətbuat xidmətində bildirmişlər ki, sözügedən translyasiyadan dərhal sonra keçmiş SSRİ-nin bütün guşələrindən Azərbaycanın Rusiyadakı səfirliyinə çoxsaylı məktublar və telefon zəngləri daxil olmağa başlamışdır. Səfir P.Bülbüloğlu ulduz cütlüyün baş məşqçisi A.Culin ilə əlaqə saxlamış və hökumətimiz və vətəndaşlarımız adından rəsmən etiraz etmişdir. Ümumiyyətlə, mədəni əməkdaşlığa xələl gətirən bu cür hallara dissertasiyada kəskin tənqidi münasibət bildirilir, onun xalqlarımız arasında dostluq və etimadı zəiflədən arqument olduğu vurğulanır.

İkinci fəslin **«Teatr, kino, televiziya və radio sahəsində əməkdaşlıq»** adlı dördüncü yarımfəslində Azərbaycan və Şərqi Avropa ölkələrinin qarşılıqlı teatr qastrolları, balet, sirk, kino festivalları və sənədli filmlərin beynəlxalq müsabiqəsi istiqamətində əməkdaşlıq məsələləri araşdırılır. Tədqiq edilən illərdə Azərbaycan və Şərqi Avropa ölkələri arasında mütəmadi olaraq telejurnalist qruplarının yaradıcılıq səfərləri diqqəti cəlb etmişdir. Tele-körpülər təşkil edilmiş, birbaşa televiziya və radio verilişləri yayımlanmışdır. Bütün bunlar ölkələrimiz haqqında yanlış təsəvvür və stereotiplərin aradan qalxmasına imkan vermişdir. Qeyd etmək lazımdır ki, Azərbaycan və Şərqi Avropa kino xadimlərinin, radio və televiziya işçilərinin qarşılıqlı əlaqə və təcrübə mübadiləsinin artması bu sahədə əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanlar açmışdır. Azərbaycan və Şərqi Avropa xalqlarının tarixi, mədəniyyəti, incəsənəti və məişətindən bəhs edən filmlərin dublyaj vasitəsilə həmin ölkələrdə və respublikamızda yayımlanması, həm də televiziya və audio-vizual yolla yayımlanma imkanlarının olması kino sənətinin beynəlxalq mədəni əlaqələr sistemində malik olduğu üstünlüklərdən biri kimi açıqlanır. Kino sahəsində Azərbaycan-Şərqi Avropa əməkdaşlığının inkişafında Avrasiya Televiziya və Radio Akademiyasının (ATRA) 1997-ci ildən keçirdiyi teleforumlar, Şərq-Qərb Beynəlxalq Kinofestivalı böyük əhəmiyyət daşımış və mühüm rol oynamışdırlar.

**«Tətbiqi və təsviri incəsənət əlaqələri. Sərgilər»** adlı beşinci yarımfəsildə Azərbaycan və Şərqi Avropa ölkələrinin dekorativ və tətbiqi rəsm sərgiləri, təsviri incəsənət, rəssamlıq, memarlıq,

heykəltəraşlıq, rəngkarlıq və qrafika üslubu, fotosərgilər və başqa sahələrdəki qarşılıqlı mədəni əlaqələrinə materialların elmi təhlili əsasında aydınlıq gətirilir. Bu paraqrafda milli təsviri sənət məktəbinin görkəmli nümayəndələri Azərbaycanın Şərqi Avropa ölkələri ilə mədəni əlaqələrinin mənəvi körpüsü adlandırılır. Faktiki materiallar 1991-2008-ci illərdə tətbiqi və təsviri incəsənət sahəsindəki mədəni əlaqələrin xalqlarımız arasında ildən-ilə geniş vüsət aldığını sübut edir. Azərbaycan rəssamlarından T.Salahov, T.Nərimanbəyov, R.Babayev, E.Rzaquliyev, N.Əliyev, N.Əhmədova, Ə.Şəmsi, M.Sokolova-Kərimova, O.İmanova və başqaları bir sıra əsərlərini Rusiya, Ukrayna, Belarus, Bolqarıstan, Polşa, Rumıniya və s. mövzularına həsr etmişlər. Rusiya, Belarus, Polşa, Rumıniya və başqa Şərqi Avropa rəssamlarından İ.Qundorina, Q.Vaşçenko, G.Pinxasov («Bakıya məhəbbətlə» fotosərgisi), L.Madzik, E.Stoyçev və digərlərinin yaradıcılığında Azərbaycan mövzusu mühüm yer tutmuşdur. Azərbaycan və Şərqi Avropa ölkələrində mütəmadi olaraq təsviri və tətbiqi incəsənət əsərlərinin sərgiləri təşkil edilmişdir. Sərgilərdə Azərbaycan xalqının incəsənət sahəsindəki nailiyyətləri müvəffəqiyyətlə nümayiş olunmuşdur. Eyni zamanda, ölkəmizdə Şərqi Avropa xalqlarının incəsənət əsərləri uğurla sərgilənmişdir. Azərbaycan və Şərqi Avropa ölkələrində görkəmli dövlət, elm və mədəniyyət xadimlərinin abidələrinin qarşılıqlı surətdə ucaldılması da təsviri və tətbiqi incəsənət sahəsində ölkələrarası mədəni əməkdaşlığın diqqətəlayiq nümunələrindən biri kimi dəyərləndirilir.

Üçüncü fəsil **«Təhsil və elm sahələrində əlaqələr»** adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir.

**«Ali məktəblər arasında əməkdaşlığın genişlənməsi»** adlanan birinci yarımfəsildə müəyyən olunur ki, nazirliklərarası müqavilə və sazişlərlə yanaşı, Azərbaycan və Şərqi Avropa ölkələrinin müxtəlif ali təhsil müəssisələri arasında birbaşa bağlanmış ikitərəfli əməkdaşlığa dair razılaşmalar təhsil sahəsində əlaqələrin inkişafında mühüm rol oynamışdır. Paraqrafda Azərbaycan və Şərqi Avropa ölkələrinin tərəfdaş ali təhsil müəssisələri arasında müəllim, aspirant, magistr və tələbələrin mübadiləsi; müəllim və elmi işçilərin ixtisaslarının artırılmasına qarşılıqlı yardım; qabaqcıl tədris metodları sahəsində təcrübələrin mübadiləsi; qarşılıqlı maraq doğuran sahələr üzrə elmi əməkdaşlığın yaradılması; elmi nəşrlərin, metodik material və müxtəlif faydalı sənədlərin mübadiləsi; müştərək tədqiqatlar, ikitərəfli birgə elmi simpozium, seminar və konfransların təşkili; dövlət və qeyri-dövlət xətti

ilə azərbaycanlı tələbələrin Şərqi Avropa universitetlərində təhsil alması və digər məsələlər açıqlanır. Azərbaycanın ali təhsil müəssisələrindən Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Milli Aviasiya Akademiyası, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Tibb Universiteti və digərlərinin Şərqi Avropa ölkələrinin universitetləri ilə əməkdaşlığı müfəssəl şəkildə öyrənilir. Rusiya, Ukrayna, Belarus, Polşa və Rumıniyanın aparıcı universitetləri ilə bağladığı ikitərəfli müqavilələr və digər faktlar göstərir ki, BDU-nun beynəlxalq əlaqələrinin əsas istiqamətlərindən birini Şərqi Avropa universitetləri ilə əməkdaşlıq təşkil etmişdir.

Bakı Slavyan Universitetinin Azərbaycan və Şərqi Avropa arasında «möhkəm mənəvi və intellektual körpu» kimi dəyərləndirilməsi ilə əlaqədar onun beynəlxalq əlaqələrinə bu yarımfəsildə xüsusi olaraq diqqət yetirilir. Universitet Rusiya, Ukrayna, Belarus, Moldova, Polşa, Bolqarıstan və Rumıniyanın bir çox aparıcı universitetləri ilə ali məktəblərarası saziş və müqavilələr çərçivəsində unikal beynəlxalq əməkdaşlıq telləri qurmuşdur. Müəllim və tələbə mübadiləsi, birgə elmi tədqiqat, konfrans, simpozium və seminarların təşkili, müəllimlərin ixtisasartırması, elmi-metodiki ədəbiyyatların mübadiləsi, bazar günü məktəbinin fəaliyyəti, müştərək jurnalların nəşri və digər sahələrdəki əlaqələr konkret faktiki material əsasında açıqlanır. BSU-da 1996-cı ildən bolqar və polyak dilləri, 1998-ci ildən isə Ukrayna dili tədris olunur, rus filologiyası və rusiyaşünaslıq, bolqarşünaslıq, polşaşünaslıq və ukraynaşünaslıq ixtisasları üzrə mütəxəssislər , o cümlədən Ukrayna, rus, polyak, bolqar dillərindən tərcüməçilər hazırlanır. Tədqiq edilən illərdə Universitet slavyan mədəni dəyərlərini öyrənən mərkəzə - «Slavyanşünaslıq» elmi-tədris mərkəzinə çevrilmişdir. Burada fəaliyyət göstərən «Slavyan filologiyası» kafedrası (1996-cı il), Rusiya tədris-mədəniyyət mərkəzi («Moskva auditoriyası»), «Ukrayna tədris-mədəniyyət mərkəzi», «Sankt-Peterburq» mədəniyyət və tədris mərkəzi, «Bolqar dili və mədəniyyəti mərkəzi», «Polyak dili və mədəniyyəti mərkəzi», T.Şevçenko adına Ukrayna dili kabineti kimi elmi-tədqiqat və mədəni-tədris mərkəzləri mənəvi dəyərlərin qarşılıqlı mübadilə olunmasında böyük əhəmiyyət kəsb edirlər. Bakı Slavyan Universitetinin rəhbərliyi Şərqi Avropa ölkələrinin universitetlərində «Azərbaycanşünaslıq» mərkəzlərinin açılması və geniş fəaliyyət göstərməsi istiqamətində ciddi və ardıcıl addımlar atmışdır. Tədqiqata cəlb edilmiş faktiki materiallar sübut edir ki, elm, təhsil və mədəniyyət

sahəsində əmkdaşlığın genişləndirilməsində böyük uğurlar qazanan BSU «Azərbaycan və slavyan ölkələri arasında mühüm həlqəyə» çevrilmişdir.

Bu fəslin **«Elmi əlaqələr»** adlı ikinci yarımfəslində 1991-2008-ci illərdə Azərbaycan və Şərqi Avropa ölkələri arasında elmi və elmi-pedaqoji kadrların hazırlanması; alim, tədqiqatçı və mütəxəssislər arasında yaradıcılıq əlaqələri, təcrübə mübadiləsi; elmi bilik və elmi-texniki informasiyaların, elmi ədəbiyyatın mübadiləsi; təbiət, texniki, humanitar və ictimai elmlər sahələrində birgə elmi- texniki layihələrin və elmi-tədqiqat işlərinin həyata keçirilməsi; ixtira və kəşflərin lisenziya əsasında ötürülməsi, yeni texnika və texnologiyaların birgə istehsalı, birgə elmi-tədqiqatlar işlərinin nəticələrindən qarşılıqlı istifadə; görkəmli elm və mədəniyyət xadimlərinin yubileyinə, mühüm tarixi hadisələrin ildönümünə həsr olunmuş birgə elmi konfrans və simpoziumların keçirilməsi və və digər sahələrdə elmi əməkdaşlıq məsələləri tədqiq edilir. Elmi-texniki əməkdaşlığa dair hökumət, elmi müəssisə və mərkəzlər arasında imzalanmış ikitərəfli saziş və müqavilələr, beynəlxalq və regional elmi qurumlar çərçivəsində ikitərəfli və çoxtərəfli elmi əməkdaşlığa dair sazişlər 1991-2008-ci illərdə Azərbaycanın Şərqi Avropa ölkələri ilə elmi əlaqələrinin qurulmasının və genişlənməsinin siyasi-hüquqi bazasını təşkil etmişdir. Elmi-mədəni əməkdaşlığın öyrənilməsi əsasında belə bir qənaət hasil olur ki, 1991-2008-ci illəri əhatə edən elmi əlaqələr Azərbaycanın Şərqi Avropa ölkələri ilə münasibətlərində mühüm yer tutmuş və müasir tələblərə cavab vermişdir. Rusiyalı, ukraynalı, bolqar, rumın, polyak, latış, eston və digər tərəfdaşları Azərbaycan elmi və alimlərinin nüfuzunu yüksək qiymətləndirərək birgə fundamental tədqiqatlara təşəbbüs göstərmiş, elmi əlaqənin bütün istiqamətləri üzrə əməkdaşlığı genişləndirmişlər. Şərqi Avropa ölkələrinin elmi qurum və təşkilatları ilə qarşılıqlı əlaqədə AMEA-nın institutları və elmi-tədqiqat mərkəzləri aparıcı yer tutmuşdur. Eyni zamanda, tədqiqata cəlb edilmiş çoxsaylı faktlar BDU, ADNA, ATU, BSU və AMAA kimi nüfuzlu ali təhsil müəssisələrinin Şərqi Avropanın tərəfdaş universitetləri ilə geniş elmi əlaqələrini təsdiq edir.

Bunu qeyd etmək lazımdır ki, ermənilərin Şərqi Avropa ölkələrinin elmi ictimaiyyətinə güclü təsirini nəzərə alaraq, həmin respublikalarla humanitar və ictimai elmlər sahəsində əlaqələrdə Azərbaycanşünaslığın aktual problemlərinin araşdırılmasına daha geniş diqqət yetirilməsinə, bu istiqamətdə mütəmadi olaraq birgə elmi konfrans, simpozium, dəyirmi masa və forumların keçirilməsinə böyük

ehtiyac vardır. Xüsusilə, Dağlıq Qarabağ probleminin tarixi, mahiyyəti və köklərinin obyektiv şəkildə hərtərəfli açıqlandığı və Şərqi Avropanın elmi ictimaiyyətinin daha geniş dairəsinin iştirak etdiyi birgə Beynəlxalq elmi konfrans, simpozium və forumların təşkil edilməsi, müştərək monoqrafiyaların yazılması olduqca vacibdir. Bütövlükdə təhsil və elm sahəsində əməkdaşlığın davamlı inkişafını təmin etmək üçün yüksək intellektual səviyyəli kadr hazırlığı daim diqqət mərkəzində olmalıdır.

Dördüncü fəsil **«Mədəni əlaqələrin inkişafında mədəni-kütləvi tədbirlərin və milli-mədəni birliklərin rolu»** adlanır və beş yarımfəsildən ibarətdir.

Bu fəslin **«Mədəniyyət günləri»** adlı yarımfəslində Azərbaycanın Şərqi Avropa dövlətləri ilə qarşılıqlı surətdə həyata keçirilən mədəniyyət günləri, ongünlükləri və həftələrinin mahiyyəti və xarakteri açıqlanır, Azərbaycan ili, Azərbaycan milli mətbəxi və gənclər günlərinin keçirilməsi məsələlərinə aydınlıq gətirilir. Həyata keçirilmiş mədəniyyət günləri geniş işıqlandırılır. 1991-2008-ci illərdə Şərqi Avropa respublikalarından yalnız Rusiya, Ukrayna, Belarus və Moldova ilə Azərbaycan arasında qarşılıqlı mədəniyyət günləri keçirilmişdir. Mədəniyyət günləri həmin dövlətlərin müvafiq nazirlikləri və hakimiyyət orqanları arasında imzalanmış mədəniyyət sahəsində əməkdaşlıq haqqında saziş və konkret müddətli protokollara uyğun olaraq keçirilmişdir. 2006-cı il oktyabrın 11-də Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Rumıniyanın Mədəniyyət və Dini İşlər Nazirliyi arasında imzalanmış mədəniyyət sahəsində əməkdaşlıq haqqında Sazişin 9-cu maddəsi ilə «Razılığa gələn Tərəflər hər iki ölkədə Mədəniyyət Günlərinin keçirilməsi məqsədilə müvafiq hazırlıq işlərinin aparılmasına» dair öhdəlik götürmələrinə baxmayaraq tədqiqat dövrünün sonuna kimi onu reallaşdırmaq mümkün olmadı. Qeyd etmək lazımdır ki, başlıca olaraq Azərbaycan və Şərqi Avropanın postsovet respublikaları arasında dolğun və intensiv olan mədəniyyət günləri xalqlarımızın zəngin mədəniyyət və incəsənəti ilə yaxından tanış olmağa imkan vermiş, yeni əlaqələrin qurulması və mədəniyyətin müxtəlif sahələrində birgə layihələrin həyata keçirilməsi üçün geniş üfüqlər açmışdır. Xalqların və milli-mədəni irsin bir-birinə yaxınlaşmasında mühüm rolu artıq tarixi təcrübədə özünü doğrultmuş mədəniyyət günləri Azərbaycanın Polşa, Bolqarıstan, Rumıniya və Baltikyanı ölkələr ilə əməkdaşlığında tətbiq olunsaydı, bu ölkələrlə mədəni əlaqələr daha dinamik və geniş miqyaslı olardı.

Dördüncü fəslin **«Qardaşlaşmış şəhərlər»** adlı yarımfəslində Azərbaycan və Şərqi Avropa ölkələrinin tərəfdaşlıq və dostluq edən şəhər və rayonlarının mədəni, iqtisadi, sosial, təhsil, səhiyyə və idman sahələrində əməkdaşlıq məsələləri tədqiq edilir. Ermənilərin bütün dünyada, o cümlədən Şərqi Avropa ölkələrində Azərbaycan əleyhinə güclü təbliğat apardığı bir məqamda şəhərlərimizin qardaşlaşma ənənəsini davam etdirməsi olduqca vacibdir və mühüm əhəmiyyət kəsb edir. Tədqiq edilən illərdə ölkələrimiz arasında mədəni əlaqələrinin inkişafında əhəmiyyətli rolu olan qardaşlaşmış şəhərlər ikitərəfli müqavilələr əsasında qarşı tərəfin mədəni infrastrukturundakı qabaqcıl təcrübənin öyrənilməsi; nümayəndə heyətinin tanışlıq səfərlərinin təşkili; yaradıcı heyətlərin, kütləvi informasiya vasitələrinin və təhsil ocaqlarının mübadiləsinin, sərgi və yarmarkaların təşkili, qarşılıqlı olaraq elmi konfransların, yubileylərin, mədəniyyət günləri və festivallarının keçirilməsi; tərəfdaş şəhərlərin tarixi, adət-ənənələri və milli-mədəni irslərinin qarşılıqlı təbliğ edilməsi və digər sahələrdə əməkdaşlıq etmişlər. tədqiq edilən illərdə qardaşlaşmış şəhərlər hərəkatı yalnız Rusiya, Ukrayna, Belarus və Bolqarıstanı əhatə etmiş və başlıca olaraq şəhər hakimiyyəti orqanları nümayəndələrinin qarşılıqlı rəsmi səfərlərində və mədəniyyət günlərində öz ifadəsini tapmışdır. Qardaşlıq əlaqələrində şəhərlər mövcud potensial imkanlarından tam istifadə edə bilməmişlər. Bütün bunlara baxmayaraq, qardaşlaşmış şəhərlərin əlaqələri dostluq, qarşılıqlı anlaşma və etimad mühitinin yaranmasında öz izini qoymuş, Azərbaycan və Şərqi Avropanın müəyyən bölgələrinin bir-birini yaxından tanımasına şərait yaratmışdır.

Üçüncü yarımfəsil **«İdman və mədəni turizm sahəsində əməkdaşlıq»** adlanır. Bu yarımfəsildə tədqiq edilən illərdə Azərbaycan və Şərqi Avropa ölkələri arasında idman və mədəni turizm əlaqələrinin formaları, səciyyəvi cəhətləri, inkişaf dinamikası və perspektivləri tədqiq edilir. İdman sahəsində müqavilələrin həyata keçirilməsi, idmançıların qarşılıqlı mübadiləsi, təcrübə mübadiləsi və birgə məşqlərin təşkil edilməsi, idman qurumları arasında birgə layihələrin reallaşması kimi məsələlərə xüsusi diqqət yetirilir. Tədqiq olunan illərdə bir sıra Şərqi Avropa ölkəsinin idman sahəsində mədəni əməkdaşlıq prosesinə xələl gətirən bəzi addımlar da atdığı diqqəti cəlb etmişdir. Belə ki, Dağlıq Qarabağda 2004-cü il mart ayının 10-18-də keçirilən «Beynəlxalq şahmat turnir»ində Rusiya, Polşa, Latviya şahmatçılarının, 2008-ci ilin oktyabrında keçirilən Stolüstü tennis üzrə «Beynəlxalq turnir»də Rusiya

idmançılarının rəsmi Bakının icazəsi olmadan özbaşına iştirakı və s. Azərbaycan hökumətinin haqlı narazılığına və kəskin etirazına səbəb olmuşdur. Mədəni dəyərlərimizdən bəhrələnən Şərqi Avropa xalqlarının nümayəndələrinin belə qeyri-səmimi addımları Azərbaycan ictimaiyyətində bir çox suallar, qarşılıqlı dostluq münasibətlərində şübhələr və narazılıq doğurmuşdur.

Ermənistanın torpaqlarımıza təcavüz etdiyi, ermənilərin milli-mədəni dəyərlərimizi özününküləşdirməyə çalışdığı bir zamanda respublikamıza edilən turist səfərləri zamanı milli-mədəni irsimizlə əyani olaraq yaxından tanış olmaları Şərqi Avropa ictimaiyyətində doğru informasiya və təəssürat yaranmasında mühüm rol oynamışdır. Bu amil Şərqi Avropa ilə mədəni turizm əlaqələrinin bundan sonra daha da dinamik inkişaf etdirilməsini tələb edir. Əlaqələri genişləndirmək üçün isə Azərbaycanın Mədəniyyət siyasəti üzrə Milli Məruzədə qeyd edildiyi kimi, «ziyarət ediləcək mənzərəli yerlər turist xidmətlərilə əhatə olunmalı, turistlər üçün görüşlər və orientasiya sistemləri (informasiya, tərcümə, bələdçilər, kataloqlar) inkişaf etdirilməli, turizm sahəsində kiçik və orta müəssisələrin sayca artması təşviq olunmalı; sovet hakimiyyəti dövründən sonrakı yeni milli irs şüurunun yayğınlaşmasına çalışılmalıdır». [1] Tariximizi əbədiləşdirən arxeoloji və epiqrafik abidələrin hər birinin turistlərin ziyarəti üçün beynəlxalq səviyyədə muzeylərə çevrilməsi günün tələbidir.

Sonuncu fəslin **«Milli diaspor, dostluq cəmiyyətləri və mədəniyyət mərkəzlərinin mədəni əlaqələrin inkişafında rolu»** adlı dördüncü yarımfəslində milli diaspor, milli-mədəni birliklər və dostluq cəmiyyətlərinin Azərbaycanın mədəniyyət siyasətinə bağlılığı, ölkələrimiz arasındakı mədəni əlaqələrdə iştirakı məsələləri tədqiq edilir. 1991-2008-ci illərdə milli diaspor Şərqi Avropa ölkələrində də güclənib fəallaşaraq təşkilatlanmış və xalqlarımız arasındakı mədəni əlaqələrin genişlənməsində mühüm rol oynamışdır. Şərqi Avropa ölkələrinin konstitusiyaları və bir çox qanunları, həmçinin bu respublikaların «Avropa insan hüquqları Konvensiyası»nı, «Milli azlıqlar haqqında çərçivə Konvensiyası»nı, «Dillər haqqında Avropa xartiyası»nı imzalamaları milli azlıqların hüquqlarının dövlət səviyyəsində qorunmasına təminat vermişdir. Rusiyada «Ocaq» Azərbaycan Mədəniyyəti Cəmiyyəti, Bakılı Cəmiyyəti, «Rusiya Azərbaycanlılarının

[1] Azərbaycanda mədəniyyət siyasəti. Bakı: Nağıl evi, 2004,s. 186-187.

Federal Milli - Mədəni Muxtariyyəti» - «Azerros», «Ümumrusiya Azərbaycanlılar Konqresi», Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı, «Bakı» jurnalı; Ukrayna Respublikasında Ukrayna Azərbaycanlıları Konqresi, Xarkov vilayətinin Azərbaycan-Ukrayna «Dostluq» cəmiyyəti, Ukrayna-Azərbaycan Dostluğu Beynəlxalq Xeyriyyə Fondu və s.; Moldova Respublikasında Moldova Azərbaycanlıları Konqresi və s.; Belarusda Azərbaycan İcmaları Konqresi və s.; Litvada Litva Azərbaycanlıları Cəmiyyəti, «Günəş» Assosiasiyası, Vilnüs Azərbaycanlıları Cəmiyyəti və s.; Latviyada «Azəri» Latviya Azərbaycanlıları Cəmiyyəti, «Latviya-Azərbaycan mədəniyyət assosiasiyası», «Azəri-Vəhdət» Cəmiyyəti və «Ocaq» Mədəniyyət Mərkəzi və s.; Estoniyada «Ocaq» Azərbaycan Mədəniyyəti Cəmiyyəti, «Aydan» Estoniya-Azərbaycan Mədəniyyət Mərkəzi, «Estoniya-Azərbaycan Dostluq Cəmiyyəti» və s.; Polşa Respublikasında Polşa-Azərbaycan Mədəniyyət Assosiasiyası, Azərbaycan Mədəniyyət və İnformasiya Mərkəzi və s.; Rumıniya Respublikasında Rumıniya-Azərbaycan Gənclər və Mədəniyyət Assosiasiyası, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyəti və s.; Bolqarıstanda Azərbaycan-Bolqarıstan Dostluq Cəmiyyəti və digərləri ölkələrimiz arasında mədəni əlaqələrin inkişafına öz töhfələrini vermişlər. Tədqiq edilən illərdə Şərqi Avropa ölkələrindəki Azərbaycan icma və birlikləri, dostluq cəmiyyətləri tərəfindən mədəni irsimizin, klassik ədəbiyyatımızın, folklorumuzun, musiqimizin təbliği ilə bağlı ardıcıl surətdə təqdirəlayiq tədbirlər həyata keçirilmiş, Azərbaycan dövlətinin milli bayramları yerli xalqın nümayəndələri ilə birlikdə böyük təntənə ilə qeyd edilmişdir. Milli diaspor yaşadığı ölkənin iqtisadi, siyasi və mədəni potensialının gücləndirilməsinə, ölkənin ictimai həyatına inteqrasiyasının dərinləşməsinə, eyni zamanda milli mənliyini, doğma dilini, mədəniyyətini qorumaq və inkişaf etdirməklə xalqlarımız arasında mədəni əməkdaşlıq tellərinin möhkəmləndirilməsinə öz töhfəsini vermişdir.

Dördüncü fəslin **«Azərbaycandakı milli-mədəni birliklərin Şərqi Avropa ilə mədəni əlaqələrdə iştirakı»** adlı beşinci yarımfəslində müəyyən edilir ki, Azərbaycanda dövlət müstəqilliyi bərpa edildikdən sonra millətlərarası münasibətlərə, milli və dini tolerantlığın möhkəmləndirilməsi işinə çox böyük diqqət verilmiş, respublika rəhbərliyi özünün qəbul etdiyi hüquqi sənədlərində milli azlıqların şəxsi azadlıqlarının, sosial-siyasi, iqtisadi, mədəni inkişaflarının qarşısında

perspektivlər açmışdır. Belə ki, Azərbaycan Respublikası müstəqilliyini bərpa edəndən dərhal sonra Prezident Ə.Elçibəy «Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətlərinin inkişafı üçün dövlət yardımı haqqında» 16 sentyabr 1992-ci il tarixli 212 saylı fərman imzaladı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət-ənənələrinin və s. qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı. Onların əlifbaları, doğma dillərində dərslikləri hazırlandı, kitablarının, qəzetlərinin nəşri üçün dövlət büdcəsindən vəsait ayrıldı, respublika radiosunda, yerli özəl televiziyalarda və qəzetlərdə doğma dillərində veriliş və materiallar hazırlanmasına şərait yaradıldı, müxtəlif konfessiyaların hamısının sərbəst və azad fəaliyyət göstərməsinə tam hüquqi təminat verildi. Görülən işlərin yüzdə biri də sübut edir ki, 1993-cü ildən sonra milli azlıqların spesifik məsələlərinə ağır, iqtisadi çətinliklər içərisində yaşayan Azərbaycanda dövlət səviyyəsində kompleks və müntəzəm qayğı göstərmək ənənəyə çevrilibdir.[1] Azərbaycan Respublikası Konstitusiyası və digər bir çox hüquqi aktlar ölkəmizdə milli azlıqların hüquqlarının qorunması üçün dövlət səviyyəsində verilmiş xüsusi təminata əyani nümunədir. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsində göstərilir ki, dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.[2] Konstitusiyanın 44-cü maddəsində isə deyilir: «I.Hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. II.Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz.[3] Konstitusiyanın 45-ci maddəsində milli azlıqların ana dilindən istifadə hüququ təsbit edilmişdir: «I.Hər kəsin ana dilindən istifadə etmək hüququ vardır. Hər kəsin istədiyi dildə tərbiyə və təhsil

---

[1] Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı: Şərq-Qərb, 2002, s.79.
[2] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2003, s.9.
[3] Yenə orada, s.13.

almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır. II.Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz»[1] 2000-ci ildə Azərbaycan milli azlıqların hüquqlarının müdafiəsi üzrə mühüm müddəaların təsbit olunduğu «Milli azlıqların müdafiəsi haqqında» Çərçivə Konvensiyasına qoşuldu və milli qanunvericiliyini bu konvensiyanın tələblərinə uyğun təkmilləşdirdi. Respublika hökuməti milli azlıqların dillərinin və adət-ənənələrinin inkişafına böyük önəm verərək «Azərbaycanda insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı»nı qəbul etdi və s.

Çoxsaylı faktlardan göründüyü kimi, Azərbaycan dövlətinin etnik qrupların hüquq və azadlıqlarının qorunmasına yönəlmiş milli siyasəti nəticəsində ölkəmizdə yaşayan Şərqi Avropa xalqlarının nümayəndələri də ikitərəfli mədəni əlaqələrin, mədəniyyətlərarası əməkdaşlığın inkişafında yaxından iştirak etmişdirlər. Azərbaycan Respublikasında Şərqi Avropa xalqlarına aid icma və cəmiyyətlər («Sodrujestvo» Azərbaycan Respublikası Xalqlarının Həmrəyliyi Cəmiyyəti, Azərbaycan Rus İcması, Rus Mədəniyyət Mərkəzi, T.Q.Şevçenko adına Azərbaycan Ukrayna İcması, «Azərbaycan-Belarus» Dostluq Cəmiyyəti, Azərbaycan-Polşa Dostluq və Əməkdaşlıq Mərkəzi «Poloniya», «Azərbaycan- Bolqarıstan dostluğunun inkişafına yardım» Cəmiyyəti və s.) də mədəni əlaqələrin genişlənməsinə öz töhfələrini vermişlər. Bu məqsədlə konqres, konfrans, festival, konsert, sərgi və dəyirmi masalar təşkil etmişlər. Bununla bərabər, respublikamızda fəaliyyət göstərən icma və dostluq cəmiyyətləri «Azərbaycan-Bolqarıstan dostluğunun inkişafına yardım» cəmiyyətindən nümunə götürərək «Akkord» («Akord») jurnalı timsalında beynəlxalq müştərək dərgi dərc edə və xalqlarımıza məxsus milli-mənəvi dəyərləri bu yolla öz dillərində, eləcə də Azərbaycanca daha geniş təbliğ edə və mədəni əlaqələrə daha böyük töhfə verə bilərlər.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqatın əsas yekunları sistemləşdirilir və ümumiləşdirilir, işin mühüm elmi-nəzəri müddəaları ifadə edilir və sonda isə praktik tövsiyələr verilir.

## Dissertasiyanın əsas müddəaları aşağıdakı çap işlərində əks olunub:

### Azərbaycanda nəşr olunmuş:

---
[1] Yenə orada.

**Monoqrafiya:**

1. Azərbaycan-Şərqi Avropa: mədəniyyətlərarası əməkdaşlığın tarixi. Monoqrafiya. Bakı: Mütərcim, 2008, 312 s.

**Elmi məqalələr:**

2.Demokratik cəmiyyət quruculuğu və tarixin tədrisinin aktual məsələləri // Pedaqoji Universitetin Xəbərləri (Humanitar elmlər seriyası). №1, Bakı: ADPU, 2005, s.352- 355;

3.Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlığın əsas istiqamətləri // Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal, I buraxılış. Bakı: «Adiloğlu» MMC mətbəəsi, 2005, s.123-130;

4.Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında qarşılıqlı münasibətlər: qarşıdurmadan strateji tərəfdaşlığa doğru // Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri (hüquq, sosial-ictimai, iqtisadi, filologiya və pedaqoji elmlər seriyası). №13, Bakı, «Odlar Yurdu» nəşriyyatı, 2005, s.208-217;

5.Azərbaycan-Ukrayna strateji əməkdaşlığının inkişaf perspektivləri // Azərbaycan Dillər Universiteti Elmi Xəbərləri.II buraxılış. Bakı: «Kamran-V» mətbəəsi, 2005/2, s.205-208;

6. «Regionşünaslıq» ixtisası üzrə kadr hazırlığında «İxtisas ölkəsinin tarixi və etnoqrafiyası» fənninin tədrisinin aktual məsələləri // Humanitar elmlərin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. Buraxılış 2. Bakı: «Mütərcim», 2005, s.207-209;

7.Azərbaycan-Şərqi Avropa: mədəniyyət, elm və təhsil sahəsində əməkdaşlığı şərtləndirən amillər // Tarix və onun problemləri, 2009, № 3, s.328 – 332;

8. Azərbaycan-Şərqi Avropa mədəni əməkdaşlığı: kitab sərgiləri və yarmarkaları // Tarix və onun problemləri, 2009, № 4, s.267-272;

9. Azərbaycanın Estoniya ilə mədəni əlaqələrinin inkişafında milli diasporumuzun rolu // Qafqaz Universiteti Jurnalı (Sosial və humanitar elmlər), 2009, №28, s.38-45;

10.Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinin inkişafında ali məktəblərarası əməkdaşlığın rolu (BDU-nun timsalında). I məqalə // Bakı Universitetinin Xəbərləri (Humanitar elmlər seriyası). 2009, №4, s.90-96;

11.Литературно-художественная сторона международных культурных связях Азербайджана с Польшей // Pedaqoji Universitet Xəbərləri. Təbiət, humanitar və pedaqoji-psixoloji elmlər seriyası. 2009, № 6, s.67-72;

12.Роль восточноевропейской диаспоры в расширении культурных связей между Азербайджаном и странами Восточной Европы // Азербайджан и азербайджанцы. Баку, 2009, №1-2. Вол 105-106, с.196-202;
13.Kitab, jurnal və qəzet nəşrinin Azərbaycan-Şərqi Avropa mədəni əməkdaşlığında yeri və rolu // Pedaqoji Universitet Xəbərləri. Təbiət, humanitar və pedaqoji-psixoloji elmlər seriyası, 2010, № 1, s.141- 147;
14.Müasir mərhələdə Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinin inkişafında teatrın rolu // Naxçıvan Dövlət Universiteti. «Elmi əsərlər». Tarix və ictimai elmlər seriyası 2010, №1(29), s.16-19;
15.Azərbaycanın Şərqi Avropa ölkələri ilə mədəni əlaqələrinin genişlənməsində Heydər Əliyevin rolu. // «Dirçəliş-XXI əsr» jurn., 2010, №145-146, s.153-158;
16.Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinin inkişafında kitab mübadiləsinin rolu // Tarix və onun problemləri, 2010, № 1, s.173-177;
17.Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinin inkişafında ali məktəblərarası əməkdaşlığın rolu (BSU, Milli Aviasiya Akademiyası və s. timsalında). II məqalə // Bakı Universitetinin Xəbərləri (Humanitar elmlər seriyası). 2010, №1, s.148-153;
18. Azərbaycan-Latviya mədəni əlaqələri və milli diaspora // Pedaqoji Universitet Xəbərləri. Təbiət, humanitar və pedaqoji-psixoloji elmlər seriyası. 2010, № 4, s.117- 124;
19.Azərbaycan və Şərqi Avropa ölkələrinin musiqi sahəsində qarşılıqlı əlaqələri – beynəlxalq mədəni əməkdaşlığın bir sahəsi kimi // AMEA Naxçıvan Bölməsinin Xəbərləri (İctimai və Humanitar Elmlər Seriyası). 2010, cild 6, № 3, s. 266-272;
20. Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrində qardaşlaşmış şəhərlər hərəkatının rolu // Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, №30, Bakı, «Odlar Yurdu» nəşriyyatı, 2010, s.182-185;
21. Azərbaycan – Şərqi Avropa mədəni əlaqələrinin inkişafında elmi əməkdaşlığın tarixindən // Lənkəran Dövlət Universitetinin Elmi Xəbərləri.Humanitar Elmlər Seriyası, 2010, s. 91-99;
22. Azərbaycanın Şərqi Avropa ölkələri ilə idman sahəsində mədəni əlaqələri // Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri. Fundamental, humanitar və təbiət elmləri seriyası, Gəncə, 2010, № 3, s. 113-117;
23. Azərbaycan və Şərqi Avropa ölkələri arasında beynəlxalq mədəni turizm sahəsində əməkdaşlıq // Bakı Universitetinin Xəbərləri (Humanitar elmlər seriyası). 2010, №4, s.91-95;

24. Участие национальной диаспоры в укреплении сотрудничества между Азербайджаном и Украиной в сфере культуры (1991-2009) // Азербайджан и азербайджанцы. Баку, 2010, №3-4. Вол 107-108, с.130-138;
25. Azərbaycan – Şərqi Avropa incəsənət əlaqələri tarixindən // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri (Tarix, fəlsəfə və hüquq seriyası, 2012, № 1, s.74-82

**Xaricdə nəşr olunan:**

**Rusiya Federasiyasında:**

26.Литературные связи (книгоиздание) между Азербайджаном и странами Восточной Европы на современном этапе // Исторические науки, Российская Федерация, Москва, 2009, № 4, с.61-67 (rus dilində);
27.Историография культурных связей Азербайджанской Республики с Восточной Европы на современном этапе // Каспийский регион: политика, экономика, культура / Научный журнал. Российская Федерация, Астраханский государственный университет. Астрахань, 2012, №1(30), с.345-350 (rus dilində);

**Ukrayna Respublikasında:**

28.Роль Бакинского Славянского Университета в развитии культурных отношений между Азербайджаном и Украиной. // Культура народов Причерноморья. Научный журнал. Симфераполь, 2009, № 163, с. 137-141 (rus dilində);
29.Украинские национально-культурные объединения в развитии культурных взаимоотношений Украины с Азербайджаном на современном этапе.// Культура народов Причерноморья. Научный журнал. Симфераполь, 2009, № 173, с. 189-191 (rus dilində);
30. Розвиток співробітництва між Азербайджаном і Україною в галузі освіти та науки // Збірник наукових праць.Серія «Історія та географія»/ Харківский національний педагогічний університет ім. Г.С.Сковороди. Харків:Майдан, 2010, Вип. 39, с.128-135 (ukrayna dilində);

**Polşa Respublikasında:**

31.Stosunki naukowo-kulturowe między Azerbejdżanem a Polską na etapie współczesnym // Nauka i studia, Rzeczpospolita Polska, Przemyśl, 2009, № 8(20), str.68-75 (polyak dilində);

32.Межкультурный диалог во внешней политике Азербайджанской Республики // Nowa polityka wschodnia, , Rzeczpospolita Polska, Toruń, 2012, nr 1(2), str.217-224 (rus dilində);

**Qazaxıstan Respublikasında:**

33.Основные факторы, влияющие на культурные связи Азербайджана со странами восточной Европы // Поиск - Ізденіс. Серия гуманитарных наук. Алматы, 2011, № 4(1), с.93-97 (rus dilində);

**Bolqarıstan Respublikasında:**

34.Научно-културните връзки между Азербайджан и България. Сътрудничество в областта на образованието (1991-2008) // История: Научно-методическо списание / Издание на Министерство на образованието, младежата и науката. София-Sofia, 2012, година XX, книжка 3, с.262-271(bolqar dilində);

**Respublika və beynəlxalq konfransların materialları:**

35. "Beynəlxlaq münasibətlər tarixi" kursunun tədrisi metodikasının xüsusiyyətləri //«Heydər Əliyev və Azərbaycan Diplomatik Kadrların hazırlanmasının Aktual Problemləri» Elmi-Praktik Konfransının materialları. Bakı: «ADU nəşriyyatı», 2004, s.162-163;

36.Azərbaycan Respublikası və Slavyan ölkələri arasında qarşılıqlı münasibətlər (1992-2004-cü illər) (Rusiya Federasiyası) // Bakı Slavyan Universitetinin əməkdaşlarının illik elmi işlərinin yekununa həsr olunmuş konfrans məruzələrinin tezisləri. Bakı, «Kitab Aləmi», 2006, s.220-221;

37. Müasir mərhələdə Azərbaycan və Rusiya arasında mədəni-elmi əlaqələr haqqında // Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın materialları (Humanitar elmlər). 30-31 oktyabr 2009. Bakı: «Bakı Universiteti», 2009, s.77-79;

38.Kino, televiziya və radio sahəsində Azərbaycan və Şərqi Avropa ölkələri arasında mədəni əlaqələr // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş I Beynəlxalq elmi konfransın materialları. 3-8 may, 2010-cu il. Bakı-Naxçıvan-Gəncə, s.422-428;

39.Культурное сотрудничество Азербайджана с Восточной Европой в условиях глобализации // «Отан тарихынын әдіснамасы мен тұжырымдамасынын өзекті меселелері» атты «Қасымбаев оқулары» Халықаралық ғылыми – тәжірибелік конференциясынын

материалдары. 21-22 желтоқсан 2010 жыл. Алматы: Абай атындағы Қаз ҰПУ, 2010, с. 28-31;
40.Роль диаспоры в расширении культурных связей Азербайджана с Россией на современном этапе // «Диалог языков и культур СНГ и ШОС в XXI веке». Сборник материалов VI Международного Форума, г. Баку, 8-11 ноября 2010 года.Ч.I, Москва:ИПК МГЛУ «Рема», 2011, с.135 -142;
41.Azərbaycan – Polşa müasir mədəni əlaqələrində milli diasporun iştirakı: reallıqlar, problemlər və perspektivlər // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş II Beynəlxalq elmi konfransın materialları.II hissə. 4-7 may, 2011-ci il. Bakı -Gəncə, s.121-127.
42. Müasir mərhələdə Azərbaycan - Rumıniya mədəni əlaqələri: imkanlar və perspektivlər // AMEA Rəyasət Heyəti Humanitar və İctimai Elmlər Bölməsi və Bakı Slavyan Universiteti Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" IV Beynəlxalq elmi konfransın materialları. 01-04 may, 2013-cü il. Bakı, s.393-396.

**Мамедов Габиль Нуркиши оглы**

## Культурные связи Азербайджанской Республики со странами Восточной Европы (1991-2008 гг.)

## РЕЗЮМЕ

Диссертационная работа посвящена вопросам развития культурных связей между Азербайджаном и странами Восточной Европы в различных областях в период 1991-2008 годы. Диссертация состоит из введения, четырех глав, заключения, списка использованной литературы, практических рекомендации и приложений.

**Во введении** обоснованы актуальность и значимость темы, определены предмет, хронологические рамки, цель и задачи исследования, раскрыты теоретико-методологические основы, источниковедческая база, степень изученности темы, сформулированы научная новизна, теоретическая и практическая значимость исследования, а также апробация и структура работы.

**Первая глава -** которая называется «Культурные связи Азербайджанской Республики со странами Восточной Европы – как составная часть международных отношений» посвящена вопросам

становления политико-правовых принципов и основных направлений культурной политики Азербайджана.

**Вторая глава** – «Сотрудничество между Азербайджаном и странами Восточной Европы в области литературы и искусства» на основе исторических фактов раскрывает сущность, характер и основные направления сотрудничества.

**Третья глава** – называется «Связи в области образования и науки». Глава освещает основные направления международных культурных связей Азербайджана со странами Восточной Европы в сферах образования и науки.

**Четвертая глава** – «Роль культурно-массовых мероприятий и национально-культурных объединений в развития культурных связей» освещает основные направления деятельности национально-культурнх объединений как Азербайджана, так и стран Восточной Европы.

**В заключении** диссертации систематизируются и обобщаются основные выводы, излагаются наиболее важные научно-теоретические положения работы и выдвигается практические рекомендации.

Mammadov Habil Nurkishi

**Cultural Relations of the Republic of Azerbaijan with the Eastern European Countries (1991-2008)**

## SUMMARY

Scientific work deals with the cultural relation between Azerbaijan and Eastern European countries in different spheres during 1991-2008 years. Dissertation consists of introduction, 4 chapters, conclusion and the list of literature. The urgency and the practical importance of a theme proves in introduction, the research principle, the purpose and problems, scientific novelty is defined, the degree of a level of scrutiny of a theme is analyzed, the level of approbation of the dissertation is covered.

**Chapter I** - “Cultural relations of the Republic of Azerbaijan with the Eastern European countries – main part of international relations” is about the political and legal principles and the main directions of cultural politics of Azerbaijan, where the factors influencing on an intercultural relations of Azerbaijan with the Eastern European countries.

**Chapter II** - “Cooperation between Azerbaijan and Eastern European countries” in the spheres of literature and art on the base of the historical facts which open the main idea and character and the main directions of relationship between Azerbaijan and Eastern European countries.

**Chapter III** - “Relations in the sphere of education and science”. Chapter deals with the main direction of international cultural relations of Azerbaijan with the Eastern European countries in the sphere of education and science. The main point are the integration aspects of cooperation and it’s spheres.

**Chapters IV** - “The Role of mass cultural events and national cultural associations in the development of cultural relations”. Chapter lightens the main direction of a national-cultural associations actuaries of Azerbaijan and Eastern European countries it shows the role of mass cultural events and development of cultural relations between these countries in conclusion, dissertation classifies and generalizes the main summaries.

**The conclusions** made by the author in the conclusion, have scientific character, are logically true, turned to practice and reflect character of carried out research.

Əla növ kağız, formatı 60x84 - $^{1}/_{16}$
Tirajı 100 nüsxə

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

---

***На правах рукописи***

**ГАБИЛЬ НУРКИШИ оглу МАМЕДОВ**

# КУЛЬТУРНЫЕ СВЯЗИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ СО СТРАНАМИ ВОСТОЧНОЙ ЕВРОПЫ (1991-2008 гг.)

**Специальность: 5502.01 - Всеобщая история**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора наук по истории**

**БАКУ - 2013**